RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 18 (9185) 27 YANVAR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev ümidvardır...



Qarşıdakı dövr Fransa ilə ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq baxımından daha da səmərəli olacaq

2

## Yunanıstan Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynayır

Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



2

## Coğrafi məsafə uzaq olsa da...



Meksikanın yeni təyin olunan səfiri müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacaq

2

# Sadiq dost, əsl tərəfdaş



## Beynəlxalq təşkilatlara sədrlik missiyası İlham Əliyevin liderlik keyfiyyətlərinə verilən yüksək qiymətdir

**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan son illərdə dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib.**

Çünki Azərbaycan bölgədə təhlükəsizlik və davamlı iqtisadi imkanlara malik ölkə kimi çıxış edir, ortaya qoyduğu siyasi iradə, təşəbbüskarlıq ilə region üçün tənzimləyici və lokomotiv funksiyasını yerinə yetirir. Bütün bunlar ölkənin lideri İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət kursunun yaratdığı reallıqdır.

Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirən İlham Əliyev bu istiqamətdə daim ardıcıl və sistemli addımlar atır, qlobal təşəbbüslərlə çıxış edir. Elə bunun nəticəsidir ki, son 20 ildə xarici siyasətin bütün istiqamətləri üzrə Azərbaycan diplomatiyası böyük uğurlar əldə edib. Ölkəmiz dünyada sayılıb-seçilən, sözü eşidilən, təşəbbüsü dəstək qazanan dövlət kimi nüfuzunu yüksəldib.

### Müstəqil xarici siyasətin yaratdığı reallıq

Azərbaycanın son illərdə beynəlxalq imicinin daha da yüksəlməsi, respublikamızın ən ali səviyyəli tədbirlərdə ön cərgədə iştirakı, qlobal miqyasda ölkəmizin rəyinə hörmətlə yanaşılması və digər belə qürurverici olaylar, əlbəttə ki, hansısa təsadüfün nəticəsi deyil. Bu nailiyyətlər birbaşa olaraq İlham Əliyevin nümayiş etdirdiyi əzmkarlığın, rəhbərlik qabiliyyətinin, yüksək diplomatik bacarığının, qətiyyətli siyasətinin məntiqi nəticəsidir, desək, yanılmarıq.

İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu daha da möhkəmləndirdi. İndi qalib ölkə kimi Azərbaycan oyun qaydalarını özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə əməkdaşlıq təkliflərini açıq şəkildə ortaya qoyur.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir.

7

## Ə.C.Əhmədovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Əli Cavad oğlu Əhmədov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

## Möhkəm iradə və milli təəssübkeşliyin təcəssümü

Laçın-Xankəndi yolundakı aksiya 47 gündür davam edir



47 gündür davam edən aksiyada "Mina terroruna son!", "Ekoloji terrora son!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır" kimi şüarlar səsləndirilir. Eyni zamanda 10 noyabr üçtərəfli Bəyanatının şərtlərinin pozulduğu, belə ki, ermənilərin Laçın-Xankəndi yolundan humanitar məqsədlə deyil, terrorçuları keçirmək, silah-sursat, mina daşımaları üçün istifadələrini dayandırmaları tələb olunur.

10

## Ağdam-Füzuli avtomobil yolunun inşası sürətlə davam etdirilir



7

# Qalib ölkənin legitim maraqları nəzərə alınmalıdır

***Avropa İttifaqının son qərarları Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətindəki fəaliyyətinin səmimiliyinə şübhə yaradır***

8

# Prezident İlham Əliyev ümidvardır...

## Qarşıdakı dövr Fransa ilə ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq baxımından daha da səmərəli olacaq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında diplomatik əlaqələrin qurulmasının keçən il 30 illiyinin qeyd olunduğunu vurğuladı. Dövlətimizin başçısı ötən müddət ərzində iki ölkə arasında diplomatik əlaqələrin zəngin tarixinin olduğunu diqqətə çatdırdı.

Azərbaycan Prezidenti qarşıdakı dövrün ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlıq baxımından daha da səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Səfir Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Fransaya səfərini xatırlatdı, ölkəmizdə səfir kimi fəaliyyəti dövründə Azərbaycan ilə Fransa arasında münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı regional məsələlərə də toxunuldu. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ərazisində Laçın-Xankəndi yolunun guya bağlanması barədə Ermənistanın əsassız iddialar irəli sürdüyünü qeyd edərək bu iddiaların tamamilə yalan və cəfəng olduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki təyinatlı yüklərin və mülki şəxslərin bu yolla daşınması təmin edilir. Dekabrın 12-dən etibarən 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yol ilə hər iki istiqamətdə keçidi təmin olunub.

Dövlətimizin başçısı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasının və ölkəmizin bu yataqlar üzərində daimi monitorinqinin təmin edilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev səfirə Azərbaycandakı diplomatik fəaliyyəti dövründə uğurlar arzuladı.

# Yunanıstan Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynayır

## Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Xristos Kapodistrias etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı "Cənub qaz dəhlizi"nin ölkələrimizi birləşdirdiyini və bütöv bir regionun inkişafına töhfə verdiyini, ümumi maraq kəsb edən layihə olduğunu bildirdi. Həmçinin Yunanıstanın Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynadığını qeyd etdi.

Prezident İlham Əliyev Yunanıstan ilə Bolqarıstan arasında interkonnektorun açılış mərasimində iştirakını məmnunluqla xatırladı və bu layihənin Avropanın enerji təhlükəsizliyinə töhfə verməsinin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu dedi.

Səfir Xristos Kapodistrias Azərbaycanda fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirdi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd etdi. Diplomat xüsusilə elm, təhsil, mədəniyyət, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğuladı.

Görüşdə həmçinin Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığı məsələlərinə də toxunuldu, Yunanıstanın Azərbaycanın hər iki təsisatla əlaqələrinin genişləndirilməsini dəstəklədiyi qeyd olundu.

Söhbət zamanı regional məsələlərə toxunularaq Azərbaycan ərazisində Laçın-Xankəndi yolunda baş verən hadisələr haqqında məlumat verildi, yolun guya bağlı olması barədə Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu bildirildi.

Dövlətimizin başçısı qeyd etdi ki, dekabrın 12-dən indiyədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki şəxslərin və mülki yüklərin, 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yolla hər iki istiqamətdə hərəkəti təmin olunub.

# Coğrafi məsafə uzaq olsa da...

## Meksikanın yeni təyin olunan səfiri müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacaq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyeronun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Mariya Viktoriya Romero Kabalyero etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında coğrafi məsafənin uzaq olmasına baxmayaraq, əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu bildirdi.

Səfir də ölkələrimiz arasında əməkdaşlıq üçün çoxlu imkanların mövcudluğunu qeyd etdi, xüsusilə enerji, investisiyalar, elm, təhsil və digər sahələrdə geniş potensialın olduğunu vurğuladı.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə də toxunuldu. Səfir Meksikanın Qoşulmama Hərəkatı yanında müşahidəçi dövlət olaraq Azərbaycanın Hərəkatın sədri kimi təşəbbüslərini izlədiyini və ölkəsinin "Cənub-Cənub" əməkdaşlıq prosesini dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini qeyd edərək ölkəmizin Hərəkatın sədri olaraq onun təsisatlanması istiqamətində, o cümlədən Hərəkatın Gənclər Şəbəkəsinin və Parlament Şəbəkəsinin yaradılması təşəbbüsləri ilə çıxış etdiyini bildirdi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.

Səfir Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı.

## Milli Aviasiya Akademiyasının bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq Milli Aviasiya Akademiyasının 30 illiyi münasibətilə **qərara alıram:**

1. Milli aviasiya kadrlarının hazırlanması sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Dadaşov Fuad Həsən oğlu

Mahmudlu Firdovsi Ələddin oğlu.

2. Milli aviasiya kadrlarının yetişdirilməsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Abdullayev Pərviz Şahmurad oğlu

Məcidova Valentina Qurban qızı

**"Əməkdar mühəndis"**

Musayev Aydın Ərəstun oğlu

Nəbiyev Rasim Nəsib oğlu

Nizamov Telman İnayət oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

## "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030, № 12 (I kitab), maddə 2330; 2018, № 5, maddə 901, № 10, maddə 1991, № 12 (I kitab), maddə 2592; 2019, № 5, maddə 857, № 12, maddə 1923; 2020, № 5, maddə 541; 2021, № 9, maddə 986; 2022, № 8, maddə 892) 6-cı hissəsində "2022-ci" sözləri "2024-cü" sözləri ilə əvəz edilsin.

2. Bu Fərman 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

## "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 897, № 12 (I kitab), maddə 2592; 2019, № 12, maddə 1923; 2021, № 9, maddə 985) 3.2-ci bəndində "2022-ci" sözləri "2024-cü" sözləri ilə, "2025-ci" sözləri isə "2027-ci" sözləri ilə əvəz edilsin.

2. Bu Fərman 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340; 2019, № 5, maddə 802; 2021, № 10, maddə 1091; 2022, № 1, maddə 8) 20.0.21-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 20.0.22-ci maddə əlavə edilsin:

"20.0.22. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazilərin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı - 2023-cü il yanvarın 1-dən 10 il müddətinə.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 755-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 755-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.22-ci (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20.0.22-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 20.0.22-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.22-ci maddəsinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilər üzrə idxalı gömrük rüsumlarından azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 755-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340; 2019, № 5, maddə 802; 2021, № 10, maddə 1091; 2022, № 1, maddə 8) 20.0.22-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 20.0.23-cü maddə əlavə edilsin:

"20.0.23. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı - 2023-cü il yanvarın 1-dən 2 il müddətinə.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2022-ci il*

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 767-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 767-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.23-cü (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20.0.23-cü (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 20.0.23-cü (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.23-cü maddəsinə uyğun olaraq, dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin siyahısını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 767-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801; 2016, № 2 (II kitab), maddə 260, № 6, maddə 1022; 2017, № 8, maddə 1521; 2022, № 1, maddə 19, № 5, maddə 474) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-1-ci bənddə "və 20.0.21-ci" sözləri ", 20.0.21-ci, 20.0.22-ci (hər iki halda) və 20.0.23-cü (hər iki halda)" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 3.2-1-ci və 3.5-1-ci bəndlər əlavə edilsin:

"3.2-1. həmin Qanunun 20.0.22-ci (ikinci halda) və 20.0.23-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"3.5-1. həmin Qanunun 20.0.22-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;";

3.3. 3.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.9-cu bənd əlavə edilsin:

"3.9. həmin Qanunun 20.0.23-cü (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

## "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.2-ci (hər iki halda) maddəsində, 4-cü maddəsinin birinci və ikinci cümlələrində, 5.3-cü, 6.2-ci və 7.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.1.2-ci (birinci halda) və 5.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4-cü maddəsinin birinci və ikinci cümlələrində, 6.2-ci və 7.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.1.2-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə uyğun olaraq, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. altı ay müddətində:

2.2.1. həmin Qanunun 4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, koordinasiya qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında əsasnaməni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.2. həmin Qanunun 6.2-ci maddəsinə uyğun olaraq, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2.3. həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, dövlət orqanları (qurumları) tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə və onlara dəstək infrastrukturunu təşkil edən qurumlara, həmçinin həmin qurumlar tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin qiymətləndirilməsi qaydalarını təsdiq etsin, qiymətləndirməni həyata keçirən qurumu müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin yaradılmasını Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" nəzərə alınmaqla altı ay müddətində təmin etsin və həmin bazanın Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1928 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"nin 3.1.31-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.31. sahibkarların vahid reyestrinin formalaşdırılması və aparılması ilə bağlı müvafiq tədbirlər görmək;".

5. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 481; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 573; 2007, № 12, maddə 1246; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2020, № 6, maddə 686; 2022, № 8, maddə 863) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2023-cü il*

# Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndinə uyğun olaraq, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində münasibətləri tənzimləyir, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqinin forma və metodlarını müəyyən edir.

### 1-ci fəsil
### Ümumi müddəalar

**Maddə 1. Bu Qanunda istifadə olunan əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **mikro, kiçik və orta sahibkarlıq subyektləri** - "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinə əsasən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə aid edilmiş kommersiya hüquqi şəxsləri və fərdi sahibkarlar;

1.1.2. **səlahiyyətli qurum** - mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən, mikro, kiçik və orta sahibkarlığın tənzimlənməsində, həmin sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında və problemlərinin həllində iştirak edən, onlara siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən xidmətləri göstərən, dövlət orqanlarının (qurumlarının) və özəl qurumların mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərdikləri xidmətlərin əlaqələndirilməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.1.3. **mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri** - mikro, kiçik və orta sahibkarlıq subyektlərinə aid edilən hüquqi şəxslər və fərdi sahibkarlar, dövlət tərəfindən onlara göstərilən xidmətlər və dəstək tədbirləri, onların fəaliyyətinin qiymətləndirilmə nəticələri haqqında elektron məlumatlar toplusu;

1.1.4. **mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar** - mikro, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı, onların investisiya və innovasiya fəallığının artırılması, istehsal etdikləri malların (gördükləri işlərin, göstərdikləri xidmətlərin), intellektual fəaliyyətinin nəticələrinin daxili və xarici bazarlarda yayılması sahəsində fəaliyyət göstərən kommersiya və qeyri-kommersiya hüquqi şəxsləri;

1.1.5. **biznes inkubatoru** - mülkiyyətində, yaxud istifadəsində malların istehsalı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üçün xüsusi təchiz edilmiş sahələri və müvafiq əmlakı olan, sahibkarlıq fəaliyyətinə başlamaq istəyən və yeni başlayan subyektlərin ilkin inkişaf dövründə bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulan inkubasiya xidmətlərini göstərməklə dəstəklənməsini təmin edən hüquqi şəxs.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericilik**

2.1. Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, bu Qanundan, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Ələt Azad İqtisadi Zonasında mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı münasibətlər "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

### 2-ci fəsil
### Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasəti

**Maddə 3. Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin məqsədləri, prinsipləri və əsas istiqamətləri**

3.1. Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas məqsədləri aşağıdakılardır:

3.1.1. mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması;

3.1.2. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin artırılması;

3.1.3. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin investisiya və innovasiya fəallığının stimullaşdırılması;

3.1.4. mikro, kiçik və orta sahibkarlığın davamlı inkişafının təmin edilməsi;

3.1.5. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin istehsal etdikləri malların (gördükləri işlərin, göstərdikləri xidmətlərin), onların intellektual fəaliyyətinin nəticələrinin daxili və xarici bazarlara çıxmasına kömək edilməsi;

3.1.6. vətəndaşların sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi yolu ilə əhalinin məşğulluğunun təmin edilməsi və özünüməşğulluğun inkişafı;

3.1.7. ümumi daxili məhsulun həcmində və qeyri-neft ixracında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payının artırılması.

3.2. Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət siyasətinin prinsipləri aşağıdakılardır:

3.2.1. sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə dair normativ hüquqi aktların layihələrinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sahibkarlıq fəaliyyətinə mümkün təsirinin qiymətləndirilməsi;

3.2.2. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin və dövlət dəstəyinin səmərəliliyinin artırılması;

3.2.3. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunun bütün mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün əlçatanlığı;

3.2.4. dövlət, regional, yerli, həmçinin iqtisadiyyatın prioritet sahələri üzrə inkişaf proqramlarında iştirak və dövlət dəstəyinin alınması ilə bağlı mikro, kiçik və orta sahibkarlıq subyektlərinə bərabər imkanların yaradılması;

3.2.5. dövlət dəstəyinin göstərilməsi prosedurlarının açıqlığı və şəffaflığı;

3.2.6. dövlət dəstəyi mexanizmlərinin haqsız rəqabət haqqında qanunvericiliyə uyğun olaraq formalaşdırılması.

3.3. Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

3.3.1. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmət və dəstək haqqında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məlumatlılığının artırılması, qarşılaşdıqları çətinliklərin həlli və fəaliyyətlərinin inkişafının dəstəklənməsi üçün səlahiyyətli qurum vasitəsilə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bilavasitə fəaliyyət göstərdiyi ərazilərdə xidmətlərin təşkili;

3.3.2. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirak mexanizminin təkmilləşdirilməsi;

3.3.3. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sahibkarlıq və investisiya fəaliyyətini təşviq edəcək vergi siyasətinin həyata keçirilməsi;

3.3.4. mikro, kiçik və orta sahibkarlığa dəstək infrastrukturunun formalaşdırılması və onun daimi inkişafının təmin edilməsi;

3.3.5. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə xidmətlərin göstərilməsi ilə bağlı inzibati prosedurların və dövlət nəzarəti prosedurlarının, o cümlədən onlar tərəfindən lisenziya və icazələrin alınması prosedurlarının sadələşdirilməsi;

3.3.6. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətində innovativ texnologiyalardan, həmçinin malların (işlərin, xidmətlərin) keyfiyyətinin artırılmasını təmin edən texnologiyalardan istifadəyə dəstək və stimullaşdırma mexanizmlərinin tətbiqi;

3.3.7. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçilərinin hazırlığı, yenidən hazırlığı və ixtisasının artırılması sahəsində dəstək göstərilməsi;

3.3.8. mikro, kiçik və orta sahibkarlıq subyektlərində korporativ idarəetmə, korrupsiya ilə mübarizə və keyfiyyətin idarə edilməsi standartlarının aşkarlıq və hesabatlılıq prinsipləri əsasında tətbiqi və təşviqi;

3.3.9. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ticarət şəbəkələrinə çıxış imkanlarının genişləndirilməsi;

3.3.10. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ekoloji təmiz iqtisadiyyatda rolunun yüksəldilməsi və ekoloji təmiz texnologiyalardan istifadəsinin təşviqi;

3.3.11. mikro, kiçik və orta sahibkarlara effektiv məsləhət xidmətinin formalaşdırılması;

3.3.12. mikro, kiçik və orta sahibkarların mütərəqqi bilik və bacarıqlara çıxış imkanlarının artırılması;

3.3.13. iqtisadiyyatın sahələri üzrə mikro, kiçik və orta sahibkarların biznes təşəbbüslərinin dəstəklənməsi və innovativ sahibkarlığın təşviqi;

3.3.14. mikro, kiçik və orta sahibkarların yeni bazarlara çıxış imkanlarının artırılması;

3.3.15. mikro, kiçik və orta sahibkarların maliyyə resurslarına çıxışının asanlaşdırılması, o cümlədən investorlarla birgə işin qurulmasının dəstəklənməsi;

3.3.16. mikro, kiçik və orta sahibkarlara dövlət-biznes xidmətlərin təşkili sahəsində imkanların yaradılması və bizneslərarası xidmətlərin təşkilində metodiki və digər dəstəyin göstərilməsi.

**Maddə 4. Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində koordinasiya qrupu**

Mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən səlahiyyətli qurumun yanında daimi fəaliyyət göstərən koordinasiya qrupu yaradılır. Koordinasiya qrupunun tərkibi, habelə səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 5. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri**

5.1. Səlahiyyətli qurum mikro, kiçik və orta sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrini yaradır. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin aparılması qaydası və həmin reyestrə daxil edilməli olan məlumatların siyahısı mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə ilə müəyyən edilir.

5.2. Bu Qanunun 5.1-ci maddəsinə əsasən müəyyən edilən məlumatların əldə edilməsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

5.3. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

### 3-cü fəsil
### Mikro, kiçik və orta sahibkarlığın inkişafına dəstək

**Maddə 6. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin şərtləri**

6.1. Bu Qanuna əsasən dövlət dəstəyi almaq üçün mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən müraciətlərin edilməsi və onlara baxılması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.2. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

**Maddə 7. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstəyin formaları, göstərilməsi qaydası və qiymətləndirilməsi**

7.1. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstəyin formaları və göstərilməsi qaydası Azərbaycan Respublikasının qanunlarında, digər normativ hüquqi aktlarda, habelə mikro, kiçik və orta sahibkarlığın inkişafına dair dövlət proqramlarında müəyyən edilir.

7.2. Dövlət orqanları (qurumları) tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə və onlara dəstək infrastrukturunu təşkil edən qurumlara, həmçinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin qiymətləndirilməsi qaydaları və qiymətləndirməni həyata keçirən qurum müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 4-cü fəsil
### Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstəyin növləri

**Maddə 8. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət maliyyə dəstəyi**

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət maliyyə dəstəyi Azərbaycan Respublikasının qanunlarında və digər normativ hüquqi aktlarda müəyyən edilən hallarda və qaydada dövlət büdcəsinin vəsaiti hesabına və (və ya) müxtəlif güzəştlər şəklində aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən göstərilir.

**Maddə 9. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə məsləhət və informasiya dəstəyi**

9.1. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə məsləhət və informasiya dəstəyi aşağıdakı formalarda göstərilir:

9.1.1. mikro, kiçik və orta sahibkarlığın inkişafı üzrə təlimlərin, tədris seminarlarının və elmi-praktiki konfransların təşkili;

9.1.2. xarici ölkələrdə təcrübə keçirilməsinin təşkili;

9.1.3. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin həyata keçirilməsi təcrübəsi, yeni texnologiyalar bazarı haqqında metodiki vəsaitlərin, informasiya bülletenlərinin yayılması;

9.1.4. məsləhət, informasiya, hüquq, marketinq və digər sahələrdə xidmətlərin göstərilməsi, habelə regionlarda informasiya və məsləhət mərkəzləri şəbəkəsinin yaradılması;

9.1.5. qabaqcıl xarici və yerli texnologiyalara əlçatanlığa yardım göstərilməsi;

9.1.6. yerli malların (işlərin, xidmətlərin) ixracına yardım məqsədilə informasiya dəstəyinin göstərilməsi.

9.2. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə informasiya dəstəyinin göstərilməsi məqsədilə səlahiyyətli qurum öz rəsmi internet səhifəsində aşağıdakı məlumatları yerləşdirir:

9.2.1. mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlmiş dövlət proqramları və digər proqramlar və onların həyata keçirilməsi barədə məlumatları;

9.2.2. iqtisadi fəaliyyət növləri üzrə bölünməklə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı barədə məlumat;

9.2.3. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar və onlar tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstəyin göstərilməsi şərtləri və qaydası barədə məlumat;

9.2.4. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dəstək tədbirləri barədə məlumat;

9.2.5. sahibkarlıq, investisiya mühitinin və mikro, kiçik və orta sahibkarlığa dəstək infrastrukturunun təhlilinin nəticələri barədə məlumatlar;

9.2.6. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı üçün tələb olunan digər məlumatlar (iqtisadi, hüquqi, statistik, marketinq və s.), o cümlədən səlahiyyətli qurumun fəaliyyət sahəsinə aid olan məlumatları.

**Maddə 10. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçilərinin hazırlığı, təkrar hazırlığı və ixtisaslarının artırılması sahəsində dövlət dəstəyi**

10.1. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçilərinin hazırlığına, təkrar hazırlığına və ixtisaslarının artırılmasına dövlət dəstəyi aşağıdakı formalarda göstərilir:

10.1.1. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçilərinin hazırlığı və ixtisaslarının artırılması proqramlarının hazırlanması;

10.1.2. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçiləri üçün vahid təlim, məsləhət və müxtəlif formatlardan (praktiki məşğələlər, işgüzar oyunlar, mühazirə kursları) istifadə etməklə distant təlim xidmətlərinin göstərilməsi;

10.1.3. işaxtaranların sahibkarlıq fəaliyyətinin əsaslarına yiyələnməsinin, gənclər arasında sahibkarlığın, habelə ailə və qadın sahibkarlığının təbliği;

10.1.4. qabaqcıl texnologiyaların tətbiqi və mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə beynəlxalq təcrübə mübadiləsi proqramlarında iştirakına kömək göstərilməsi;

10.1.5. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin işçilərinə təlim keçən təlimçilərin hazırlanması.

**Maddə 11. Biznes inkubatoru**

11.1. Bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulan xidmətlər biznes inkubatoru ilə sahibkarlıq fəaliyyətinə başlamaq istəyən və yeni başlayan subyektlər arasında bağlanılmış müqavilə ilə müəyyən edilmiş şərtlər əsasında təqdim edilir. Biznes inkubatoru ilə inkubasiya xidmətlərinin göstərilməsi haqqında müqavilə bağlamış sahibkarlıq fəaliyyətinə başlamaq istəyən və yeni başlayan subyektlər biznes inkubatorunun rezidenti sayılır.

11.2. Biznes inkubatoru inkubatorun rezidentinə əmlak, idarəetmə, biznes tərəfdaşların axtarılması və maliyyə resurslarının əldə edilməsi, kadr hazırlığı, texniki, informasiya, məsləhət, hüquqi, marketinq, icarə, lizinq və digər dəstək xidmətlərinin göstərilməsini təmin edir.

11.3. Biznes inkubatorları məqsədli təyinatından asılı olaraq çoxsahəli və ya ixtisaslaşmış ola bilərlər.

**Maddə 12. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya, məhsul istehsalı və xidmət sahəsində dəstəklənməsi**

12.1. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya, məhsul istehsalı və xidmət göstərilməsi sahəsində dövlət orqanları (qurumları) və bələdiyyələr tərəfindən dəstəklənməsi aşağıdakı formalarda həyata keçirilir:

12.1.1. ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin və seleksiya nailiyyətlərinin patentləşdirilməsinə, həmçinin mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılan intellektual fəaliyyətin digər nəticələrinin dövlət qeydiyyatına alınmasına kömək göstərilməsi;

12.1.2. vençur sahibkarlığın inkişafına kömək göstərilməsi;

12.1.3. innovasiyalar, məhsul istehsalı və xidmət göstərilməsi sahəsində satınalma müqavilələrinin bağlanılmasına mikro, kiçik və orta sahibkarlıq subyektlərinin cəlb edilməsi üçün şəraitin yaradılması;

12.1.4. xarici investisiyaların cəlb edilməsinin və qarşılıqlı faydalı beynəlxalq innovasiya əməkdaşlığının inkişafının həvəsləndirilməsi;

12.1.5. mikro, kiçik və orta sahibkarlıq subyektləri ilə "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinə əsasən iri sahibkarlıq subyektlərinə aid edilmiş sahibkarlıq subyektləri arasında əməkdaşlığın genişləndirilməsinin müxtəlif stimullaşdırıcı tədbirlər vasitəsilə dəstəklənməsi.

12.2. Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, eləcə də dövlət proqramları ilə dəstək tədbirləri müəyyən edilərkən bu Qanunla müəyyən edilmiş forma, istiqamət, prinsip və şərtlər əsas götürülməlidir.

### 5-ci fəsil
### Yekun müddəalar

**Maddə 13. Mübahisələrin həlli**

Bu Qanunun tətbiqi zamanı yaranan mübahisələr danışıqlar yolu ilə, inzibati qaydada, tərəflərin qarşılıqlı razılaşması əsasında məhkəmədən kənar digər yollarla və ya "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla Azərbaycan Respublikasının məhkəmələri vasitəsilə həll edilə bilər.

**Maddə 14. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə hüquqi, fiziki və vəzifəli şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 15. Bu Qanunun qüvvəyə minməsi**

15.1. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

15.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının 1999-cu il 4 iyun tarixli 673-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 469; 2001, № 12, maddə 736; 2002, № 12, maddə 709; 2003, № 12 (I kitab), maddə 672; 2007, № 10, maddə 938; 2015, № 11, maddə 1264; 2018, № 11, maddə 2199; 2019, № 6, maddə 993; 2020, № 7, maddə 827) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2022-ci il*

# "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 1013; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 1, maddə 6, № 3, maddə 226, № 4, maddə 280; 2000, № 7, maddə 489; 2001, № 11, maddə 686, № 12, maddə 736; 2002, № 5, maddələr 241, 248; 2003, № 1, maddələr 1, 16, № 12 (I kitab), maddə 673; 2006, № 8, maddə 657; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 49, № 5, maddə 348; 2010, № 4, maddə 276; 2013, № 11, maddə 1283; 2014, № 4, maddə 333, № 10, maddə 1156; 2016, № 12, maddə 2014; 2017, № 6, maddə 1057; 2018, № 2, maddə 156; 2019, № 1, maddələr 10, 29; 2020, № 11, maddə 1322; 2022, № 7, maddə 692) 2-ci maddəsinin 1-ci hissəsində "Azərbaycan Respublikasının Qanunu" sözləri "və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının qanunları" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2022-ci il*

# Baş nazirin müavininin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir













**Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış komissiyanın sədri, Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə komissiyada təmsil olunan bir sıra dövlət qurumlarının nümayəndələrindən ibarət heyət Türkiyəyə səfər edib.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Anıtqəbiri ziyarət edib, Türkiyə Cümhuriyyətinin banisi Atatürkün məzarı önünə əklil qoyub və Anıtqəbir muzeyi ilə tanış olub.

Baş nazirin müavini Şahin Mustafayev xatirə kitabına ürək sözlərini yazıb.

Ankarada Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkı ziyarət edən Azərbaycan nümayəndə heyəti Ulu Öndərin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad edib.

Səfər çərçivəsində Türkiyənin vitse-prezidenti Fuad Oktay Azərbaycan nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri və mətin siyasi iradələri nəticəsində bu gün ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı qeyd edilib. Qarşılıqlı faydalı və uğurlu əməkdaşlığımızın artıq ikitərəfli formatdan çıxaraq regional inkişafa, stabilliyə və təhlükəsizliyə, o cümlədən bütün türk dünyasına böyük töhfələr verən mühüm faktora çevrildiyi vurğulanıb.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət!" və Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir!" kəlamları əsasında inkişaf edən münasibətlərimiz Azərbaycan Prezidenti İlham Əliyevin TANAP layihəsinin açılış mərasimində səsləndirdiyi "Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir" və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa Bəyannaməsinin imzalanma mərasimində səsləndirdiyi "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" prinsipləri əsasında yeni mərhələyə qədəm qoyub.

Baş nazirin müavini, komissiyanın sədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən irimiqyaslı quruculuq layihələrin icrasında da Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Ermənistan tərəfindən işğal dövründə həmin ərazilərdə hər şey, o cümlədən bütün infrastruktur tam dağıdılıb və bunlar müasir tələblərə uyğun yenidən qurulur. Türkiyə şirkətlərinin iştirakı ilə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində hava limanları, su anbarları inşa edilir, avtomobil yolları salınır, dəmir yolları çəkilir, tunellər tikilir və digər bir sıra infrastruktur layihələri gerçəkləşdirilir.

Ankarada nümayəndə heyəti ilə eyni zamanda Türkiyənin kənd təsərrüfatı və meşə naziri Vahid Kirişçi arasında görüş keçirilib, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və su təsərrüfatının idarə olunması sahəsində Türkiyənin böyük təcrübəsi ətrafında müzakirələr aparılıb, təqdimatlar dinlənilib.

Səfər çərçivəsində nümayəndə heyəti Çamlıdərə su anbarına, Geredə içməli su tunelinə və bir sıra digər su təsərrüfatı obyektlərinə baxış keçirib, su təsərrüfatı obyektlərinin inteqrasiyalı idarə edilməsi və səmərəli istismarı ilə bağlı fikir mübadiləsi aparacaqlar.

Azərbaycan nümayəndə heyətinin tərkibinə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, "Azməlsutəsərrüfat" ASC-nin sədri Zaur Mikayılov, "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov və digər rəsmi şəxslər daxildirlər.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 25-də və 26-da Qəbələ Rayon Polis Şöbəsində növbəti görüş keçirib.

Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından qəbula gələn 104 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

* * *

Yanvarın 26-da Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Goranboy şəhərindəki Heydər Əliyev Mərkəzində Goranboy və Xocalı rayonlarından, həmçinin Naftalan şəhərindən olan vətəndaşlarla görüşüb.

Dövlət Gömrük Komitəsinin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Goranboy, Xocalı rayonları və Naftalan şəhər sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Görüşdə hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov yanvarın 26-da Salyanda Hacıqabul, Neftçala, Salyan rayonlarından və Şirvan şəhərindən olan vətəndaşlarla görüşüb.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 20 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, təkrar tibbi müayinəyə cəlb olunma, veteran adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətdən möhlət hüququnun verilməsi, eləcə də digər məsələlərlə bağlı olub. Qəbul zamanı vətəndaşların müraciətlərinin həlli ilə bağlı mövcud qanunvericiliyin tələbləri izah edilib, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Daxili işlər naziri Qəbələdə sıra baxışı keçirib

**General-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Qəbələdə yerləşən hərbi hissəsinə gedib. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.**



Nazir V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti ilə maraqlanıb, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub.

Sonra daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Sonda daxili işlər naziri bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 34-ü Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 131 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu CƏDVƏLİ

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **İmişli** | İmişli, Sabirabad, Saatlı, Beyləqan, Füzuli, Xocavənd | **rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | 08 |
| 2. | **Saatlı** | Saatlı, Sabirabad, İmişli | **kənd təsərrüfatı naziri** İnam Kərimov | 09 |
| 3. | **Kürdəmir** | Kürdəmir, Ağdaş, Ucar, Zərdab, Ağsu, Göyçay | **Baş prokuror** Kamran Əliyev | 10 |
| 4. | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | 10 |
| 5. | **Şəmkir** | Şəmkir, Gədəbəy | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | 10 |
| 6. | **Lerik** | Lerik, Lənkəran, Astara | **gənclər və idman naziri** Fərid Qayıbov | 11 |
| 7. | **İsmayıllı** | İsmayıllı, Ağsu | "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru **Ruslan Əliyev** | 13 |
| 8. | **Şamaxı** | Şamaxı, Qobustan | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | 14 |
| 9. | **Yevlax** | Yevlax, Mingəçevir, Bərdə | **ədliyyə naziri** Fikrət Məmmədov | 15 |
| 10. | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Neftçala, Cəbrayıl | **daxili işlər naziri** Vilayət Eyvazov | 16 |
| 11. | **Salyan** | Salyan, Şirvan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | 16 |
| 12. | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | 16 |
| 13. | **Tərtər** | Tərtər, Ağdam | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | 16 |
| 14. | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan | **Ali Məhkəmənin sədri** Ramiz Rzayev | 17 |
| 15. | **Şəki** | Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | **mədəniyyət naziri vəzifəsini müvəqqəti icra edən** Adil Kərimli | 17 |
| 16. | **Zaqatala** | Zaqatala, Balakən, Qax | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | 17 |
| 17. | **Qobustan** | Qobustan, Şamaxı | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | 17 |
| 18. | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | 17 |
| 19. | **Abşeron** | Abşeron, Zəngilan | **ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | 23 |
| 20. | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | 23 |
| 21. | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | 23 |
| 22. | **Yevlax** | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Ucar, Zərdab, Kürdəmir | **elm və təhsil naziri** Emin Əmrullayev | 24 |
| 23. | **Beyləqan** | Beyləqan, Ağcabədi, Füzuli, Xocavənd | **energetika naziri** Pərviz Şahbazov | 24 |
| 24. | **Qusar** | Qusar, Quba | **əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | 24 |
| 25. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | 24 |
| 26. | **Şirvan** | Şirvan, Hacıqabul | **iqtisadiyyat naziri** Mikayıl Cabbarov | 24 |
| 27. | **Saatlı** | Saatlı, Sabirabad, İmişli | **Dövlət Gömrük Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Şahin Bağırov | 24 |
| 28. | **Xaçmaz** | Xaçmaz, Şabran, Siyəzən | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | 24 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu çoxşaxəli islahatlar kursunun mühüm tərkib hissəsidir

**Müsahibimiz Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovdur.**



*- Tahir müəllim, "Siyasi partiyalar haqqında" yeni qanun Prezident İlham Əliyev tərəfindən təsdiq olundu və artıq qüvvədədir. İstərdik, əvvəlcə yeni qanunun qəbulunu zəruri edən məsələlər barədə fikirlərinizi bildirəsiniz. Siyasi partiyaların yeni qanunun qəbulu ilə bağlı təşəbbüslə çıxış etməsinin səbəbi nə idi?*

- Hər bir ölkənin inkişafını təmin edən bir sıra mühüm amillər var. Siyasi sistemin təkmilləşdirilməsi, ictimai-siyasi institutların səmərəli fəaliyyətinin təmin olunması və qanunvericilik bazasının zənginləşdirilməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Hüquqi və demokratik dövlət olan Azərbaycanda da bu məsələlər daim diqqət mərkəzində saxlanılır, ardıcıl və məqsədyönlü addımlar atılır.

Ölkəmizdə siyasi partiyaların sərbəst fəaliyyəti üçün bütün şərtlər və şərait təmin olunsa da, hüquqi bazanın təkmilləşdirilməsinə, yeni qanunun qəbuluna ehtiyac var idi. Bilirsiniz ki, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 1992-ci il 3 iyun tarixində qəbul edilmişdi, artıq yeni reallıqlara adekvat deyildi və müasir tələblərə cavab vermirdi. Çünki qanunun qəbulundan keçən 30 ildən artıq müddətdə istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə çox ciddi keyfiyyət dəyişiklikləri baş verib, yeni çağırışlar meydana çıxıb. Xüsusilə də VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdən sonra yeni siyasi konfiqurasiyanın formalaşması, 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbə nəticəsində yeni strateji hədəflərin müəyyənləşdirilməsi və bir sıra digər amillər çoxpartiyalı siyasi sistemin də təkmilləşdirilməsini zərurətə çevirib. Bütün bu reallıqların fonunda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların, o cümlədən siyasi reformaların növbəti mərhələsinə start verilib. Bu kontekstdə "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu təşəbbüsü də çoxşaxəli islahatlar kursuna ictimai-siyasi dəstək nümunəsi və irəliyə doğru atılmış əhəmiyyətli addımdır. Bu, yeni konfiqurasiya şəraitində siyasi dialoqun dərinləşdirilməsi, milli həmrəyliyin gücləndirilməsi və plüralizmə əsaslanan siyasi sistemin inkişafı baxımından olduqca önəmlidir.

*- Milli Məclisdə yeni qanunun layihəsi ətrafında bir neçə dəfə ictimai müzakirələr aparıldı. Yeni Azərbaycan Partiyası bu müzakirələrdə hansı təşəbbüslərlə çıxış etdi, hansı təklifləri irəli sürdü? Digər tərəfdən, bu qanunun YAP-ın siyasi fəaliyyətində hansı rolu olacaq?*

- Yeni qanunun qəbulu prosesi Azərbaycanın mütərəqqi demokratik təcrübəsini əks etdirir. Bu kontekstdə bir neçə məsələyə xüsusi diqqət yetirmək lazımdır.

Birincisi, proses plüralizm şəraitində və demokratik ab-havada, hərtərəfli və səmərəli ictimai-siyasi müzakirələr fonunda həyata keçirildi. Bilirsiniz ki, ilk təşəbbüs parlamentdə təmsil olunan siyasi partiyalar tərəfindən irəli sürüldü. Qanun layihəsi ilə bağlı təkliflərin təqdim olunması üçün Milli Məclis tərəfindən 2022-ci il iyulun 26-da siyasi partiyalara müraciət olundu. Həmin təkliflər əsasında hazırlanmış layihə parlamentin komitə iclasına çıxarılmamışdan öncə Milli Məclisin internet saytında ictimai müzakirələrə təqdim olundu, ardınca siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, politoloqların və media nümayəndələrinin iştirakı ilə dinləmələr keçirildi. Qanun layihəsində əksini tapmış əsas məsələlər ilə bağlı Sosial Tədqiqatlar Mərkəzi tərəfindən vətəndaşlar arasında sorğunun aparılması da proses çərçivəsində ictimai rəyə böyük önəm verildiyini göstərir.

İkincisi, qanun layihəsi hazırlanarkən dünyada mövcud olan siyasi-hüquqi tendensiyalar nəzərə alınıb, beynəlxalq normalara istinad olunaraq 24 ölkənin təcrübəsindən istifadə edilib.

Yeni Azərbaycan Partiyasının prosesdə iştirakına gəlincə, YAP çoxpartiyalı müasir siyasi sistemin aparıcı qüvvəsi kimi milli maraqları, mövcud siyasi reallıqları və dünya təcrübəsini əsas götürərək müvafiq təkliflərlə çıxış etdi. Siyasi partiyanın təsis edilməsi və fəaliyyət prinsipləri, siyasi partiyada üzvlük məsələləri, siyasi partiyanın hüquq və vəzifələri, fəaliyyətinin təşkili, maddi təminatı və maliyyə hesabatlılığı və bir sıra digər məsələlərlə əlaqədar təkliflərimizi irəli sürdük və müzakirələrdə aktiv iştirak etdik. Təbii ki, partiyamızın təklif və təşəbbüsləri ilk növbədə zəngin siyasi təcrübəyə və gələcəyə aydın baxışlara əsaslanır. Yəni 30 illik inkişaf tarixinə malik olan, qazandığı nailiyyətlərlə ümumxalq partiyasına çevrilən YAP ictimai-siyasi qanunauyğunluqları, dövlətçilik maraqlarının qorunmasına bilavasitə təsir edən daxili və xarici amilləri, ictimai rəyi və qarşıda duran vəzifələri nəzərə alaraq öz mövqeyini ifadə etdi. Təsadüfi deyil ki, müzakirələr zamanı Yeni Azərbaycan Partiyasının əksər təklifləri müsbət dəyərləndirildi və onlar yeni qanunda öz əksini tapdı.

Təbii ki, yeni qanunun qəbulu digər siyasi partiyalar kimi YAP-ın da fəaliyyətinə dinamizm gətirməklə milli məsuliyyətini də artıracaq. Yeni Azərbaycan Partiyası hər zaman demokratik siyasi mühitin və plüralizmin tərəfdarı olub, bu gün də siyasi sistemin inkişafında, dialoqun dərinləşdirilməsində, rəqabət mühitinin güclənməsində maraqlıdır və bu istiqamətdə ardıcıl fəaliyyət göstərir. Ona görə də "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunu, digər mütərəqqi və konstruktiv qüvvələr kimi, YAP da siyasi sistemin inkişafı baxımından müsbət dəyərləndirir, xalqımızın milli maraqlarına, ölkəmizin siyasi hədəflərinə və dövlətçilik ənənələrinə xidmət edəcəyinə inanır. Yeni Azərbaycan Partiyası bundan sonra da öz imkanlarından və demokratik mühitin üstünlüklərindən maksimum istifadə etməklə məqsədyönlü fəaliyyətini inamla davam etdirəcək, qarşıda duran hədəfləri reallaşdıraraq Azərbaycanın inkişafına layiqli töhfələr verəcək.

*- Ölkəmizin demokratik inkişafının və yeni siyasi konfiqurasiyanın göstəricisi kimi ictimai müzakirələr zamanı müxalifət partiyalarına da təkliflərlə çıxış etmək üçün geniş imkanlar yaradılmışdı. Azərbaycanın hakim partiyasının Sədr müavini kimi müxalifətin bu prosesdə iştirakını necə qiymətləndirirsiniz?*

- Azərbaycanda formalaşmış yeni siyasi konfiqurasiya demokratik dəyərləri və ictimai-siyasi faydalılıq prinsipini özündə ehtiva edir. Yeni siyasi proseslərin iştirakçısı olan bütün konstruktiv, sağlam qüvvələr ictimai-siyasi önəm kəsb edən məsələlərin həllində fəal iştirak edir, onların rəyi və mövqeyi nəzərə alınır. "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu prosesi də bu reallığı növbəti dəfə ifadə etdi.

İctimai rəyə və siyasi proseslərə təsir imkanları olan müxalifət partiyaları müzakirələrə fəal şəkildə qoşuldular, təklif və təşəbbüslərini irəli sürərək islahatların tərkib hissəsi olan bu prosesə öz töhfələrini verdilər. Təsadüfi deyil ki, 47 siyasi partiyadan 250-dən çox təklif Milli Məclisə yazılı formada təqdim edildi. Həmçinin parlamentdə təmsil olunan müxtəlif partiyaların nümayəndələri Milli Məclisin komitə və plenar iclaslarında 100-dən çox təklif irəli sürdülər. Müxalifət partiyalarının da iştirakı ilə aparılan müzakirələrin faydalılığını göstərən növbəti fakt qanun layihəsində dinləmələrdən sonra 70-ə qədər, Milli Məclisdə komitə və plenar iclaslardan sonra isə 40-dək əlavə və dəyişikliyin edilməsidir.

Bütün bunlar "Siyasi partiyalar haqqında" yeni qanunun ölkənin siyasi sisteminin tərkib hissəsi kimi müxtəlif ideoloji təmayüllərə və fərqli baxışlara malik partiyaların mövqe və iradəsini əks etdirdiyini, gözləntilərinə cavab verdiyini və ümummilli maraqları üstün tutduğunu göstərir. Yeni Azərbaycan Partiyası olaraq bu durumu təqdirəlayiq hal kimi qiymətləndirir və hesab edirik ki, siyasi konfiqurasiyanın möhkəmləndirilməsi fonunda yeni qanunun qəbulu ictimai-siyasi münasibətlərin sağlam zəmində inkişafına və milli həmrəyliyin güclənməsinə əlavə təkan olacaq.

*- Ekspertlər də "Siyasi partiyalar haqqında" yeni qanunun ölkədə yaranmış yeni siyasi konfiqurasiyanın daha möhkəmlənməsinə, siyasi sistemin təkmilləşməsinə, siyasi partiya fəaliyyətinə mühüm töhfələr verəcəyini qeyd edirlər. Amma yeni qanundan narazı olanlar da var. Siyasi partiya fəaliyyətinin həyata keçirilməsinin hüquqi əsaslarını müasir və demokratik çağırışlar çərçivəsində təmin edən bu qanundan narazı olanların "arqument"ləri barədə nə deyə bilərsiniz?*

- Şübhəsiz ki, "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu siyasi islahatların ardıcıl xarakter daşıdığını göstərir. Partiyaların ictimai-siyasi proseslərdə rolunun artması, siyasi rəqabət mühitinin güclənməsi, partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni müstəviyə yüksəlməsi üçün önəmli imkanlar və əlverişli şərait yaranıb. Ona görə də müəyyən ideoloji bazası, ictimai dayağı - siyasi elektoratı olan, dəyərləri, fəaliyyət prinsipləri və hədəfləri milli maraqlarla uzlaşan, çoxpartiyalı sistemin inkişafında, milli birliyin möhkəmləndirilməsində və Azərbaycanın tərəqqisində maraqlı tərəf kimi çıxış edən partiyalar yeni qanunun qəbulunu müsbət dəyərləndirərək təqdirlə qarşılayırlar. Bu, eyni zamanda siyasi mədəniyyət nümunəsidir.

Amma sizin qeyd etdiyiniz kəsim, hansı ki adlarına "narazı olanlar" deyirsiniz, onlar cəmiyyətdə birmənalı qarşılanmırlar, ictimai-siyasi proseslərdə bir çox hallarda kənar "qüvvələrin" sifarişlərini yerinə yetirməklə şəxsi maraqlarını güdürlər. Onların iddialarının milli maraqlar kontekstində məntiqi izahı, ittihamlarının isə heç bir əsası yoxdur.

Birincisi, iddia edirlər ki, yeni qanunun qəbulu guya siyasi partiyaların fəaliyyətini və hüquqlarını məhdudlaşdırır. Qanunla tanış olan və onu qərəzlilikdən uzaq şəkildə qiymətləndirən istənilən şəxs bu iddianın absurd olduğunu təsdiqləyər. "Siyasi partiyalar haqqında" yeni qanunun 3.3-cü maddəsində qeyd edildiyi kimi, "dövlət qeydiyyatından keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə təminat verilir". Eyni zamanda qanunun 3.7-ci maddəsində vurğulanır ki, "Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə müdaxiləsinə yol verilmir". Bununla yanaşı, qanunun 12-ci maddəsi ilə siyasi partiyalara ideyalarını, məqsədlərini və proqramını təbliğ etmək, digər siyasi partiyalarla fəaliyyətin əlaqələndirilməsi, habelə ümumi mənafelərin təmsil və müdafiə edilməsi məqsədilə könüllülük əsasında birləşib ittifaqlar və siyasi bloklar yaratmaq, seçkilərdə, ümumxalq səsverməsində iştirakla bağlı Seçki Məcəlləsində nəzərdə tutulmuş hüquqları həyata keçirmək, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket keçirmək, özünün və üzvlərinin hüquqlarını və qanuni maraqlarını müdafiə etmək, fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı təşəbbüslə çıxış etmək, o cümlədən dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına müvafiq təkliflər vermək, beynəlxalq əməkdaşlıq əlaqələri qurmaq, ianələr qəbul etmək və bir sıra digər hüquqlar verilmişdir. Göründüyü kimi, qanunda hər hansı bir siyasi məhdudlaşdırmadan və hüquqi nihilizmdən söhbət gedə bilməz.

İkincisi, radikal müxalifət nümayəndələri iddia edirlər ki, "Siyasi partiyalar haqqında" yeni qanun partiyalara münasibətdə ayrı-seçkilik yaradır. Lakin qanunun 4.2-ci maddəsində siyasi partiyaların qanun qarşısında bərabərliyi birmənalı şəkildə təsbit olunmuşdur. Həmin şəxslər dövlət tərəfindən siyasi partiyalara maliyyə yardımının göstərilməsini də bu kontekstdə manipulyasiya predmetinə çevirməyə cəhd göstərirlər. "Arqument"ləri isə budur ki, dövlət yeni qanunla siyasi partiyaların maliyyələşməsi məsələsində guya ayrı-seçkilik edir, bütün tərəfləri nəzərə almır və müasir dünya təcrübəsinə uyğun olmayan standartlar tətbiq edir. Təbii ki, bu qərəzli və qeyri-obyektiv yanaşma ya siyasi bilgisizlik və beynəlxalq təcrübədən xəbərsizlik göstəricisi, yaxud da məqsədli şəkildə ictimaiyyəti aldatmaq cəhdidir. Çoxpartiyalı sistemin inkişaf etdiyi müasir demokratik ölkələrdə dövlət tərəfindən maliyyələşmə mexanizmi partiyaların reytinqinə əsasən müəyyənləşdirilir. Siyasi partiya üçün reytinq göstərici isə seçkilərin nəticəsi ilə müəyyən olunur. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda da bu məsələ müxtəlif ölkələrin nümunəsi və təcrübəsi əsasında tənzimlənib. Belə ki, qanuna əsasən, dövlət tərəfindən ayrılan maliyyə vəsaiti Milli Məclisdə təmsil olunan partiyalarla yanaşı, parlament seçkilərində etibarlı səslər qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi partiyalar arasında bölünür. Bu, kifayət qədər demokratik prosedur olmaqla yanaşı, stimullaşdırıcı addım kimi siyasi partiyaları səmərəli fəaliyyətə təşviq edir, rəqabət mühitini gücləndirir, plüralizmin və siyasi sistemin inkişafına xidmət göstərir. Bu məsələdən narazı olanlar və ya onu tənqid obyektinə çevirənlər isə real fəaliyyəti olmayan, cəmiyyətdən heç bir dəstək almayan - siyasi bazası və reytinqi olmayan, heç bir siyasi marafonda qalib gəlməyən, ya qatıldığı seçkilərdə iflasa uğrayan, ya da seçkiləri boykot etməklə məşğul olan və perspektivi olmayan marginal qruplardır.

Göründüyü kimi, "Siyasi partiyalar haqqında" yeni qanunu məqsədli şəkildə hədəfə çevirməyə çalışanların "arqument"ləri heç də reallıqları əks etdirmir, özünüifşa və özünütəkzibdən başqa bir şey deyil. Siyasi proseslərdə, ictimai-siyasi məsələlərin həllində iştirak etmək, faydalı ideyalar və milli hədəflərin reallaşmasına önəmli töhfələr vermək əvəzinə, onlar, sadəcə, qərəzli və inkarçı mövqedən çıxış edərək ictimai rəyi yanıltmağa çalışırlar. Təəssüf ki, belə hallar nə ilk, nə də sondur. Yaxşı xatırlayırıq, 44 günlük Vətən müharibəsində 50-yə yaxın siyasi partiya Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində qətiyyətli siyasətinə birmənalı dəstək ifadə etdiyi halda, bəzi "siyasətçilər" antimilli mövqe sərgiləyərək taleyüklü dönəmdə milli həmrəyliyin əleyhinə olduqlarını nümayiş etdirdilər. Ardınca postmüharibə dönəmində Azərbaycanın tarixi Zəfəri diplomatiya və quruculuq müstəvisində möhkəmləndirmək məqsədilə həyata keçirdiyi prinsipial siyasəti hədəfə çevirərək qara piar kampaniyası aparmağa, ermənipərəst dairələrin tezislərini təkrarlamağa başladılar. Bu gün də Azərbaycanın hazırkı inkişafı və gələcəyi ilə əlaqədar önəmli müzakirələrin aparıldığı, mühüm qərarların qəbul edildiyi şəraitdə "ənənə"lərinə sadiq qalaraq təxribatçı mövqedən çıxış edirlər. "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu prosesini sabotaj cəhdləri bu reallığın bariz nümunəsi oldu. Təbii ki, şəxsi maraqlarını milli mənafelərdən üstün tutanların siyasi provokasiya cəhdləri iflasa məhkumdur. Yeni qanunun qəbulu prosesi çərçivəsində aparılan ictimai-siyasi müzakirələrdə ifadə olunan mövqelər, ictimaiyyətin prosesə adekvat reaksiyası və son nəticə bu reallığı bir daha təsdiqləyir.

***Müsahibəni apardı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2023-cü ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | **2** |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | **8** |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | **6** |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | **9** |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | **20** |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | **7** |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | **22** |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | **6** |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | **15** |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | **23** |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | **27** |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | **9** |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | **16** |
| **Qənirə Ələsgər qızı PAŞAYEVA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | **13** |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | **3** |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | **7** |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | **1** |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | **10** |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | **28** |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | **24** |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | **21** |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | **17** |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | **14** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# YAP Veteranlar Şurasının iclası olub

**Yanvarın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.**

İclasda Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının 2022-ci il ərzindəki fəaliyyəti barədə hesabat dinlənilib. Daha sonra YAP Veteranlar Şurasının 2023-cü il üçün nəzərdə tutulan Tədbirlər Planı müzakirə olunub.

YAP Veteranlar Şurasının üzvləri - Zərifə Quliyeva, Əhliman Əmiraslanov, Ədalət Fərəcov, Adilə Abasova, Nazim İsmayılov, Şahlar Əsgərov, Tahir Məmmədov, Sədaqət Qəhrəmanova, Elman Məmmədov, Zahid Xəlil və Urxan Ələkbərov gündəlikdə duran məsələlərə münasibət bildiriblər.

Müzakirələrdən sonra təkliflər və əlavələr nəzərə alınmaqla gündəliyə çıxarılan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

*Əvvəli 1-ci səh.*

Bu gün dünya xəritəsində yer tutan heç də hər bir dövlət Azərbaycan kimi müstəqil xarici siyasət yürütmək iqtidarında deyil. Diqqət etsək görərik ki, həqiqətən də Azərbaycanın xarici siyasətinin uğurları kifayət qədərdir. Ölkəmizin BMT-dən sonra dünyanın ikinci ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatına və Türk Dövlətləri Təşkilatına sədrlik etməsi və bu ilin yanvar ayından isə İqtisadi Əməkdaşlıq Təşkilatına rəhbərliyin icrasına başlaması Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi və ölkəmizə, onun lideri İlham Əliyevə inam və etibarın bariz təcəssümüdür.

Təsadüfi deyil ki, BMT, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Bu kontekstdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına (TŞ) qeyri-daimi üzv seçilməsini və iki il ərzində uğurlu fəaliyyətini qeyd etmək lazımdır. Şübhəsiz, hələ 2011-ci ilin oktyabrında BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Azərbaycanın 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi üzv seçilməsi və quruma 2012-ci ilin may və 2013-cü ilin oktyabr aylarında sədrlik etməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunun məntiqi nəticəsi idi.




# Sadiq dost, əsl tərəfdaş

## Beynəlxalq təşkilatlara sədrlik missiyası İlham Əliyevin liderlik keyfiyyətlərinə verilən yüksək qiymətdir

### Etimad və inamın göstəricisi

Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin quruma sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Eyni zamanda Qoşulmama Hərəkatına sədrlik Azərbaycana xüsusilə COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal rol oynamağa imkan yaratdı. Əlbəttə ki, bu prosesdə Azərbaycan dövlətinin və İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynadı. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, ümumbəşəri problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin daha 1 il artırılması ölkəmizə olan etimadın, dövlətimizin beynəlxalq münasibətlər sistemində artan nüfuzunun göstəricisidir. Məlumdur ki, sədrlik müddətinin uzadılması ilə bağlı təsisata üzv dövlətlər müraciət ünvanlayıb və Azərbaycan tərəfi bu müraciəti müsbət cavablandırıb. Bu, eyni zamanda Azərbaycan Prezidentinin qlobal liderlik keyfiyyətlərinə verilən yüksək qiymətdir.

Pandemiyanın törətdiyi fəsadlara baxmayaraq, Azərbaycan vəziyyətə çevik və adekvat reaksiya verərək Qoşulmama Hərəkatına sədrliyini müvəffəqiyyətlə davam etdirdi. Yəni Azərbaycanın bu nüfuzlu təşkilata sədrliyi çox mürəkkəb dövrə təsadüf etdi. Qısa müddətdə Prezident İlham Əliyev COVID-19 ilə mübarizə sahəsində qlobal təşəbbüslər irəli sürdü. BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi, BMT İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölgüsünə dair qətnamənin qəbul edilməsi və sair dünyada böyük rəğbətlə qarşılandı. Bu, ilk növbədə Qoşulmama Hərəkatının imicinin möhkəmləndirilməsinə böyük töhfə idi.

### Türk dünyasının ən ali mükafatı

Qoşulmama Hərəkatından əlavə, Azərbaycan 2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına (əvvəlki adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası) da uğurla sədrlik etdi. Ölkəmiz sədrliyi dövründə türkdilli ölkələr arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərdi.

Bu təşkilata sədrliklə bağlı Azərbaycan Prezidentinin fəaliyyətinə ən yüksək dəyər ötən il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşündə verildi. Dövlət Başçıları Şurasının iclasını açan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bütün qonaqları İstanbulda salamladı, Zirvə görüşünün əlaqələrimizdə yeni mərhələ açacağına əminliyini ifadə etdi: "Sədrliyi təhvil aldığımız Can Azərbaycana, pandemiyaya baxmayaraq, həyata keçirdiyi uğurlu fəaliyyətlər münasibətilə təbriklərimi çatdırıram".

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edərək dedi: "Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev. Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur. Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".

Bu mükafat Azərbaycan Prezidentinin xarici siyasətinə, dost və qardaş ölkələrlə qurduğu münasibətlərə verilən ən yüksək dəyər idi.

### İƏT-ə sədrlik - Azərbaycanın diqqət yetirəcəyi məsələlər

Bu ildən isə ölkəmiz İƏT-ə sədrlik missiyasını yerinı yetirəcək. Təbii ki, təşkilatın strategiya və proqramlarının uğurla icra olunması, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi, iqtisadiyyat, enerji, nəqliyyat, gömrük, sərhəd-keçid məntəqələri, ədliyyə, turizm və səhiyyə sahələrində bir sıra yüksəksəviyyəli görüşlərin keçirilməsi Azərbaycanın sədrlik dönəmində diqqət yetirəcəyi məsələlər olacaq.

Xatırladaq ki, İƏT hökumətlərarası təşkilat kimi, 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılıb. İƏT 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının davamçısı hesab olunur. Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, onların davamlı iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, iqtisadiyyatın və ticarətin liberallaşdırılması və regiondaxili ticarətin təşviqi və İƏT regionunun maddi sərvətlərinin səmərəli istifadəsindən ibarətdir.

Azərbaycan İƏT Nazirlər Şurasının 28 noyabr 1992-ci ildə İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilatın üzvlüyünə qəbul edilib. Həmin gün Azərbaycanla yanaşı, daha 5 digər ölkə - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan da təşkilata daxil olublar. İƏT-in bu genişlənməsi hazırda "İƏT Günü" kimi qeyd olunur. Genişlənəndən sonra İƏT Avrasiyada əhəmiyyətli bir regional birliyə çevrilib və nüfuzlu beynəlxalq təşkilat kimi təşəkkül tapmağa başlayıb.

İƏT həm də artıq həllini tapmış Qarabağ məsələsində hər zaman Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə edib. Təşkilatın 2021-ci il martın 4-də keçirilən XIV onlayn Zirvə toplantısında isə çıxış edən dost və qardaş Türkiyə, Pakistan dövlətlərinin liderləri, o cümlədən təşkilatın Baş katibi Prezident İlham Əliyevi qələbə münasibətilə təbrik etmişdilər.

Bütün bunlar Azərbaycana və onun rəhbəri İlham Əliyevin xarici siyasət kursuna verilən ən yüksək qiymətdir. Bununla yanaşı, Azərbaycan Prezidentinin ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı dövlətlərin rəhbərləri, dünyada nüfuzlu ictimai-siyasi xadimlər və digər şəxslərlə görüşləri isə həm İlham Əliyevin, həm də ölkəmizin yüksək nüfuzunun göstəricisidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Avropa Şurasında Azərbaycanın üzləşdiyi mina problemi ilə əlaqədar tədbir keçirilib

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası çərçivəsində ölkəmizin üzləşdiyi mina problemi ilə əlaqədar "Humanitar minatəmizləmə fəaliyyəti: Sülhə və dayanıqlı inkişafa yol" mövzusunda tədbir təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, məcburi köçkünlərin hüquq və təhlükəsizliyini təmin etmək məqsədilə humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyətini və Azərbaycanda davam edən minatəmizləmə prosesini dəstəkləmək üçün beynəlxalq əməkdaşlığın və yardımın səfərbər edilməsinin zəruriliyini vurğulamaq məqsədi daşıyan tədbirdə AŞ PA üzvləri, Strasburqdakı diplomatik korpusun nümayəndələri, Avropa Şurası katibliyinin əməkdaşları və digər əlaqədar şəxslər iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan AŞ PA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov Azərbaycanın dünyanın mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələrindən biri olduğunu və postmünaqişə dövründə bu ciddi humanitar problemin fəsadları ilə üz-üzə qaldığını diqqətə çatdırıb. O, işğaldan azad edilmiş ərazilərin kütləvi şəkildə minalarla çirklənməsinin genişmiqyaslı yenidənqurma və bərpa işlərinin sürətinə mane olduğunu, insanların həyat və təhlükəsizliyinə, bununla da yüz minlərlə məcburi köçkünün hüquqlarının reallaşmasına ciddi təhlükə yaratdığını vurğulayıb. 2020-ci ilin noyabrında münaqişə başa çatdıqdan sonra həmin ərazilərdə mina partlayışları nəticəsində 282 insanın həlak olması və ya yaralanması faktının problemin ciddiliyini göstərdiyini söyləyib.

Daha sonra tədbirdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpa və yenidənqurması üzrə Əlaqələndirmə Qərargahının məsul işçisi Sultan Hacıyev və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Beynəlxalq əlaqələr, maarifləndirilmə və mətbuatla iş idarəsinin rəisi Ramil Əzizov təqdimatla çıxış ediblər.

S.Hacıyev uğurlu humanitar minatəmizləmənin azad edilmiş ərazilərin bərpa və yenidən qurulmasının başlıca şərtlərindən biri olduğunu vurğulayaraq Azərbaycan hökumətinin bu sahədə davamlı səylərindən danışıb. O, minalar və partlamamış hərbi sursatlar probleminin həllinin regionda inkişaf və sabitlik üçün böyük əhəmiyyətinin olduğunu vurğulayıb.

R.Əzizov ölkəmizin üzləşdiyi bu problemin miqyası və mürəkkəbliyi, ANAMA-nın minatəmizləmə əməliyyatlarında tətbiq etdiyi qabaqcıl üsullar, bu sahədə əldə edilmiş nəticələr və çağırışlar haqqında auditoriyaya məlumat verib.

Çıxışlarda və habelə auditoriyanın suallarına cavablarda minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyəti prioritet sahələrdən biri kimi ayrıca olaraq diqqətə çatdırılıb.

Tədbirə yekun vuran S.Seyidov xüsusilə natiqlərin təqdimatında bəhs edilən, bölgəmizdə münaqişə bitdikdən sonra 2021-ci ildə Ermənistanda istehsal olunmuş minaların Laçın yolu vasitəsilə Azərbaycan ərazilərinə gətirilməsi faktını bir daha diqqətə çatdırıb və bu mühüm faktın Laçın yolu ətrafında Azərbaycan əleyhinə aparılan kampaniya kontekstində hər kəs tərəfindən ciddi nəzərə alınmalı olduğuna dair AŞ PA və digər beynəlxalq təsisatlara çağırış edib.

# Ağdam-Füzuli avtomobil yolunun inşası sürətlə davam etdirilir







**Ağdam-Füzuli avtomobil yolunun inşası Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən sürətlə davam edir.**

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, həmin yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.

Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin eni hər bir istiqamətdə 3,75 metr, ayırıcı zolağın eni 2 metr olmaqla yol yatağının eni 26,5 metr təşkil edir.

Hazırda birinci texniki dərəcəli olacaq avtomobil yolunda torpaq işlərinin icrası çərçivəsində yararsız qruntun çıxarılması, yatağın genişləndirilməsi, 26,5 metr enində yeni yol yatağının, yol əsasının tikintisi, 380 metr uzunluğunda istinad divarının, suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası davam edir.



Yolun 0-32,4 kilometrlik hissəsində layihə çərçivəsində 9 ehtiyat keçidi, 16 suötürücü boruların tikinti işləri başa çatdırılıb. Bundan başqa, bitki qatının çıxarılması 35,8 faiz, qazma işləri 9,5 faiz, torpaq yatağının tikintisi isə 21,9 faiz yerinə yetirilib. Hazırda bu hissədə nəqliyyat üçün bir alt keçidinin və bir piyada keçidinin tikintisi davam etdirilir. Layihənin 0-32,4 kilometrlik hissəsi üzrə fiziki tərəqqi 8,64 faiz təşkil edir.

Yolun 32,4-64,8 kilometr hissəsində torpaq işləri tamamlanıb, hazırda hamarlayıcı qatın və əsasın alt qatının tikintisi aparılır. Layihənin sözügedən hissəsində 4 keçid və 11 kommunikasiya borusu, 25 müxtəlif diametrli suötürücü boru inşa edilib. Bu hissədə körpü dayaqlarının tikintisi sona çatmaq üzrədir. Qeyd olunan hissədə torpaq işləri 56 faiz, süni qurğular 50 faiz, yol geyimi 11,2 faiz olmaqla, ümumilikdə tikinti işləri 22 faiz icra olunub. Yolun layihə üzrə nəzərdə tutulan 1, 6, 37 və 63-cü kilometrlik hissələrində 4 avtomobil körpüsünün inşası aparılır. Körpülərdə svay, betonlanma və dayaqların tikintisi davam edir. Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun həyata keçirilir. Tikintinin tərtib olunmuş qrafikə uyğun olaraq yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir.

Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

# Milli Məclisin komitə iclaslarında

**Yanvarın 26-da Milli Məclisin Aqrar siyasət komitəsinin 2023-cü ilin yaz sessiyasında ilk iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Tahir Rzayev yaz sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Komitə sədri bildirib ki, 2022-ci il Azərbaycan dövləti və xalqı üçün uğurlu olub. Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz sahibidir. Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş dövlətlər sırasında layiqli yerini tutur. Azərbaycan parlamenti də milli maraqlara və ölkənin inkişafına xidmət edən səmərəli fəaliyyət göstərir. Tahir Rzayev hazırda işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinin sürətlə həyata keçirildiyini, yeni infrastrukturun yaradıldığını diqqətə çatdırıb. O, 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edildiyini vurğulayaraq bu ildə də qarşıda mühüm vəzifələrin olduğunu qeyd edib.

Tahir Rzayev bildirib ki, iclasın gündəliyinə 9 məsələ daxil edilib. Bunlar 2022-ci ilin payız sessiyasında komitədə görülən işlər barədə hesabat, 2023-cü ilin yaz sessiyası üçün komitənin iş planının layihəsi və bir sıra qanun layihələridir.

Sonra komitə sədri 2022-ci ilin payız sessiyası dövründə Aqrar siyasət komitəsində görülən işlər barədə hesabatı təqdim edərək bildirdi ki, hesabat dövründə komitənin 24 iclası keçirilib, 14 məsələyə baxılıb. Müzakirə olunan sənədlər barədə məlumat verən Tahir Rzayev ötən sessiya ərzində komitə üzvlərinin qanunların hazırlanması, təkmilləşdirilməsi və qəbul olunması prosesində yaxından iştirak etdiyini söyləyib. Onların ölkədə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi hadisələrə öz münasibətlərini bildirdiklərini, aktual məsələlər, habelə iqtisadiyyatda olan yeniliklərlə bağlı mətbuatda mütəmadi çıxışlar edərək ölkə ictimaiyyətini məlumatlandırdıqlarını deyib.

Bildirilib ki, payız sessiyasında komitə üzvləri tərəfindən təmsil etdikləri regionlarda seçicilərlə görüşlər keçirilib, onları narahat edən məsələlərin həlli istiqamətində lazımi addımlar atılıb. Qeyd edilib ki, ötən sessiya ərzində komitənin ünvanına 103 məktub, təklif, ərizə və şikayət daxil olub. Gələn müraciətlərlə bağlı müvafiq işlər görülüb, aidiyyəti qurumlara məktublar göndərilib. Komitənin sədri və üzvləri Vətən müharibəsində şəhid olmuş qəhrəmanların anım tədbirlərində iştirak ediblər, şəhid ailələri və qazilərlə görüşüblər, onların sosial-məişət şəraiti ilə maraqlanıblar.

Sonra Tahir Rzayev komitənin 2023-cü il yaz sessiyası üçün iş planının layihəsini təqdim edib. O bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, o cümlədən mövcud qanunlara dəyişikliklərin müzakirəsi nəzərdə tutulub.

Komitə sədri diqqətə çatdırıb ki, yaz sessiyasında "Heydər Əliyev İli" çərçivəsində Ulu Öndərin zəngin irsinin təbliği istiqamətində bir sıra tədbirlərin və görüşlərin keçirilməsi planlaşdırılır.

Qeyd olunub ki, bununla yanaşı, aqrar sahədə işlərin gedişi və yeni vəzifələrin müəyyənləşdirilməsi ilə bağlı aidiyyəti qurumların nümayəndələri, bu sektorda çalışan sahibkarlar və mütəxəssislərlə görüşlərin keçirilməsi kimi məsələlər də yaz sessiyasının iş planına daxil edilib.

Sonra gündəlikdəki qanun layihələri müzakirəyə çıxarılıb.

Komitə sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim edərək bildirib ki, təklif olunan dəyişikliklər dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadənin təmin edilməsi ilə bağlıdır və ölkədə sahibkarlığın inkişafına xidmət edəcək.

Parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov bu qanun layihələri barədə ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, sənədlər kənd təsərrüfatı təyinatlı torpaqlardan, o cümlədən örüş, otlaq və biçənək üçün torpaq sahələrindən istifadə sahəsində mövcud problemlərin aradan qaldırılması, torpaqların icarəyə və istifadəyə verilməsi mexanizminin təkmilləşdirilməsi və bu sahədə nəzarətin gücləndirilməsi məqsədilə hazırlanıb. Dəyişikliklərə uyğun olaraq, kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə əlaqədar prosesin "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) vasitəsilə həyata keçirilməsi nəzərdə tutulub. Qeyd edilib ki, hazırda bu sahə üzrə torpaq istifadəçilərinin və təsərrüfatların qeydiyyatı EKTİS vasitəsilə aparılır, həmçinin dövlət dəstəyinin tətbiq edilməsi üçün zəruri informasiyaların sistemə daxil edilməsi təmin olunur. Beləliklə, torpaqların istifadəsi ilə bağlı ayrı-ayrı qurumların işinin EKTİS üzərindən vahid yanaşma ilə əlaqələndirilmiş formada təşkili həyata keçiriləcək, torpaqların icarəyə verilməsi ilə əlaqədar müvafiq məlumatların daşınmaz əmlakın dövlət reyestrindən EKTİS-ə real vaxt rejimində ötürülməsi təmin ediləcək, müddəti on bir aydan az olan icarə və istifadə hüquqlarının tanınması daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat tələbi götürülməklə, birbaşa EKTİS-ə daxil edilməklə tənzimlənəcək.

Müzakirələr zamanı komitə üzvləri Eldar İbrahimov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Azər Badamov, Emin Hacıyev, Aydın Hüseynov, Müşfiq Cəfərov komitənin 2022-ci il payız sessiyasının hesabatı və 2023-cü il yaz sessiyası üçün iş planı barədə fikirlərini açıqlayıblar, təqdim edilən qanun layihələrinin vacibliyini söyləyiblər. Deputatlar bir sıra qeyd və təkliflərini də səsləndiriblər.

İclasda iştirak edən Kənd Təsərrüfatı Nazirliyinin Hüquq və icra intizamı şöbəsinin müdiri Nicat Əfəndiyev, Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firudin Tağıyev qanun layihələri ilə bağlı fikirlərini bölüşüblər, deputatların qaldırdıqları bəzi məsələlərə aydınlıq gətiriblər.

Sonra komitə sədri Tahir Rzayev gündəlikdəki digər qanun layihələrini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Kredit ittifaqları haqqında", "Tütün və tütün məmulatı haqqında", "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) ilə əlaqədar bildirilib ki, sənəd "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır. Layihədə adları çəkilən qanunlarda Mülki Məcəllənin tələblərinin nəzərə alınması təklif olunur.

Komitə sədri daha sonra bir sıra qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. Bildirilib ki, bu sənədlər "Media haqqında" 2021-ci il 30 dekabr tarixli Qanunun icrası ilə əlaqədar hazırlanıb.

İclasda Aqrar siyasət komitəsində 2022-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabat qənaətbəxş hesab edilib, komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi məqbul sayılıb. Gündəliyə daxil edilən qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***

Yanvarın 26-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin parlamentin 2023-cü ilin yaz sessiyasında ilk iclası keçirilib.

Gündəliyi təqdim edən komitə sədri Sadiq Qurbanov bildirib ki, müzakirəyə 9 məsələ çıxarılıb. İlk iki məsələ Milli Məclisin 2022-ci ilin payız sessiyası dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin gördüyü işlər barədə hesabatının və 2023-cü ilin yaz sessiyası üçün işlər planının təsdiqi ilə bağlıdır. Qalan 7 məsələ qanun layihələridir.

Komitə sədri əvvəlcə ötən sessiya ilə bağlı hesabatı təqdim edərək bildirib ki, komitənin hesabat dövründə keçirilən 8 iclasında 21 məsələyə baxılıb. Həmçinin o bildirib ki, ötən sessiyada vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan 351 müraciətə komitədə baxılıb və müvafiq tədbirlər görülüb. Bu dövrdə komitə sədri ümumilikdə 34 görüş keçirib. Bunlardan 5-i Milli Məclisdə, 29-u isə seçki dairəsi üzrə Siyəzən və Şabran rayonlarında baş tutub.

Eyni zamanda sessiya ərzində komitə sədri və üzvləri yerli və beynəlxalq səviyyəli tədbirlərə qatılıblar, parlamentlərarası əlaqələr üzrə işçi qrupları çərçivəsində, həmçinin seçiciləri ilə bir sıra görüşlər keçiriblər.

Komitənin 2023-ci il yaz sessiyası üçün iş planı ilə bağlı Sadiq Qurbanov bildirib ki, planda komitəyə daxil olan qanun layihələrinə, digər sənədlərə baxılması və müvafiq qərarın qəbul edilməsi ilə yanaşı, ekologiya və energetika, bərpaolunan enerji haqqında qanunvericilik və bu sahənin aktual məsələlərinə dair aidiyyəti qurumlarla müzakirələrin keçirilməsi kimi tədbirlər də öz əksini tapıb. Eyni zamanda Hacıqabul gölünün mövcud vəziyyəti və bərpası istiqamətində işlərin görülməsi, qlobal iqlim dəyişikliyinin Azərbaycana təsiri, su təchizatı və içməli su problemi kimi məsələlərə dair müzakirələrin keçirilməsi də nəzərdə tutulub. Bunlardan başqa, Qarabağ iqtisadi rayonunda ekoloji vəziyyət, Heydər Əliyev Fondu ilə birgə ekoloji maarifləndirmə tədbirlərinin, ekologiya sahəsində ixtisaslaşmış QHT-lərlə görüşlərin keçirilməsi də komitənin diqqət mərkəzində olacaq.

İclasın gündəliyindəki qanun layihələri ilə bağlı bildirilib ki, sənədlər uyğunlaşdırma xarakterlidir. Həmin qanun layihələri "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə üzvləri Fatma Yıldırım, Nəsib Məhəməliyev, İltizam Yusifov, Afət Həsənova çıxış ediblər. Deputatlar komitənin ötən sessiyada işini qənaətbəxş sayıblar, qarşıdakı sessiyada komitənin iş planı, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı fikirlərini bölüşüblər. Millət vəkilləri Hacıqabul gölünün mövcud vəziyyəti, "yaşıl enerji"nin təşviq edilməsi və digər ekoloji məsələlərlə bağlı təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda komitənin 2022-ci il payız sessiyası dövründə gördüyü işlərə dair hesabatı məqbul sayılıb, 2023-cü ilin yaz sessiyası üçün iş planı təsdiqlənib, gündəlikdəki qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Qalib ölkənin legitim maraqları nəzərə alınmalıdır

## Avropa İttifaqının son qərarları Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətindəki fəaliyyətinin səmimiliyinə şübhə yaradır

**Ötən ilin oktyabrında Azərbaycan, Ermənistan, Fransa liderləri və Avropa İttifaqı Şurasının prezidenti arasında keçirilmiş Praqa görüşündə Aİ-nin mülki monitorinq missiyasının Ermənistan-Azərbaycan sərhədinə göndərilməsi ilə bağlı razılıq əldə olundu. Razılığa əsasən, missiya iki ay müddətinə 40 nəfərdən ibarət heyətlə fəaliyyət göstərəcəkdi. Azərbaycan bunun sülh prosesinin sürətlənəcəyinə, normallaşma prosesinə kömək göstərəcəyinə inanıb razılıq versə də, görünən odur ki, ölkəmizə qarşı ikili standartlar davam edir.**

Beləliklə, razılıq əsasında oktyabrın 20-də fəaliyyətə başlayan missiyanın müddəti dekabrın19-da başa çatdı. Bu barədə Avropa İttifaqı Şurasının Mətbuat xidməti məlumat yayaraq bildirdi ki, Ermənistandakı monitorinq missiyası fəaliyyətini başa vurub. Missiyanın məqsədinin isə bölgədə sülhün və təhlükəsizliyin bərpasının, etimadın yaradılmasının təmin edilməsi, həmçinin iki ölkə arasında beynəlxalq sərhədlərin delimitasiyası proseslərinin asanlaşdırılması olduğu vurğulanıb.

Üstündən bir ay keçməmiş Aİ əvvəlki missiyanın effektiv olduğunu bəhanə edərək bu dəfə sərhədə daha uzun müddətə və böyük tərkibdə missiya göndərmək barədə qərar qəbul etdi.

Yanvarın 23-də Avropa İttifaqı Şurası Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində Ermənistanda Aİ-nin mülki missiyasının (EUMA) yaradılmasına razılıq verildi. Missiyanın məqsədi Ermənistanın sərhədyanı ərazilərində sabitliyə, regionda etimadın yaranmasına töhfə vermək və Aİ tərəfindən dəstəklənən Ermənistanla Azərbaycan arasında normallaşma səyləri üçün əlverişli mühiti təmin etməkdir.

Missiyanın müddətinin iki il olacağı və EUMA-nın mandatının Əməliyyat Qərargahının Ermənistanda yerləşəcəyi vurğulanıb. Mülki Əməliyyatlar Komandiri Aİ-nin Xarici Fəaliyyət Xidmətinin Mülki Planlaşdırma və Davranış Qabiliyyəti Departamentinin idarəedici direktoru Stefano Tomat olacaq. Yaxın gələcəkdə regionda əməliyyatlara rəhbərlik edən missiya rəhbəri təyin olunacaq.

Eyni zamanda Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozep Borrell qeyd edib ki, Ermənistanda missiyasının yaradılması təşkilatın Cənubi Qafqazdakı fəaliyyətində yeni mərhələyə start verir.

Beləliklə, Aİ missiyasının normallaşma gündəliyinin irəli aparılmasına töhfə verəcəyi ilə bağlı ilkin gözləntilərin üzərindən xətt çəkilib. Əslində məqsədin, niyyətin fərqli olduğu görünür. İlk razılaşmada ölkəmizin ərazisində də missiyanın yerləşdirilməsi təklif edilsə də, Azərbaycan buna icazə vermədi.

### Aİ missiyasının normallaşma gündəliyinə töhfəsi ilə bağlı gözləntilər sarsılıb

Azərbaycan Xarici İşlər Nazirliyi də Aİ-nin Ermənistanda yenidən missiya yaratmaq qərarına münasibət bildirib. XİN-in yaydığı açıqlamada qeyd olunub ki, missiyanın Ermənistanda yerləşməsinin müvafiq qaydada Azərbaycanın legitim maraqlarını nəzərə alması, habelə Aİ tərəfindən bu missiyanın fəaliyyətinin qarşılıqlı inam və etimadı sarsıtmayacaq şəkildə həyata keçirilməsi təmin edilməlidir.

Bildirilib ki, iki aylıq missiyanın dəqiq müəyyən edilmiş parametrlərinin və məqsədlərinin yüksək səviyyədə razılaşdırılmasına baxmayaraq, bəzi Aİ üzv dövlətlərinin qərəzli yanaşma sərgiləməsindən sonra monitorinq missiyasının fəaliyyəti Praqada əldə edilmiş razılaşmalarla ciddi ziddiyyət təşkil etdiyi müşayiət olunub. Bu da öz növbəsində, Aİ çərçivəsində qərar qəbuletmə prosesinin etibarlılığı və şəffaflığı ilə bağlı ümumi etimada təsir edib.

Əslində Aİ-nin Ermənistanda monitorinq missiyasının mövcudluğunun Ermənistan tərəfindən hər üç istiqamətdə normallaşma prosesini pozmaq cəhdlərinin artması, o cümlədən Azərbaycan, Ermənistan və Aİ Şurası liderlərinin üçtərəfli görüşünə əsassız ittihamlarla zərbə vurulması ilə üst-üstə düşdüyü qeyd olunub. Beləliklə, Aİ missiyasının normallaşma gündəliyinin irəli aparılmasına töhfə verəcəyi ilə bağlı ilkin gözləntilərin sarsıldığı diqqətə çatdırılıb.

Vurğulanıb ki, Aİ missiyasının mövcudluğunun hazırkı dialoq mexanizmlərinə qarşı sui-istifadəsi təhlükəlidir və bundan çəkinilməlidir.



### Missiyanın göndərilməsi yekun sülh proseslərinin uzadılmasına hesablanıb

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Aİ-nin Ermənistana növbəti uzunmüddətli missiya göndərməsi hazırkı reallıqlar çərçivəsində proseslərə heç bir müsbət çalar qatmır.

Deputat Brüsseldə Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin dörd görüşünü xatırladaraq qeyd edib ki, bu görüşlər zamanı tərəflər arasında yekun sülh sazişinin imzalanması, ümumiyyətlə, sülh gündəliyinin irəli aparılması istiqamətində ciddi müzakirələr aparılıb. Bu müzakirələr Azərbaycan və Ermənistan arasında qısa zamanda sülh sazişinin imzalanacağı təsəvvürlərini də formalaşdırmağa başlayıb.

Deputatın fikrincə, Avropada sonuncu Praqa görüşündə Ermənistana dəstək nümayiş etdirildi ki, bu da Aİ-nin 40 nəfərlik müşahidə missiyasının Ermənistan ərazisinə göndərilməsi barədə qərar qəbul etməsi idi: "Azərbaycan isə ərazisinə belə bir missiyanın göndərilməsinə razılıq vermədi, amma sülh naminə lazım bildiyi çərçivədə əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi. Ötən il dekabrın 19-da göndərilmiş müşahidə missiyasının fəaliyyət müddəti başa çatdı. Amma missiyanın nəticəsi, hər hansı hesabat və ya təsəvvürlər olmadı. Bunun ardınca isə Ermənistan ərazisinə daha uzun müddətə və daha geniş tərkibdə missiya göndərilir".

Elşad Mirbəşiroğlu bildirib ki, missiyanın Ermənistan ərazisinə göndərilməsini zəruri edən heç bir şərait mövcud deyil, çünki dövlətimiz tərəfindən Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi üçün 5 maddədən ibarət şərtlər irəli sürülüb, həm Avropada danışıqlarda, həm də Ermənistan rəsmilərinin sərgilədiyi mövqelərdə bu şərtlərin məqbul və ədalətli olduğu aydın görünür. Ermənistan tərəfi şərtləri qəbul etdiyini bildirməsinə baxmayaraq, yenə hər vasitə ilə yekun sülh sazişindən yayınmağa çalışır. Praqada bu missiyanın göndərilməsi haqqında qərarın qəbulu da Ermənistanın maraqlarına xidmət edir, bununla onlar yekun sülh sazişi imzalamaqdan yayınır.

"Bu missiyanın nəticəsi olmadan Avropa hələlik yekun sülh sazişinin imzalanmasının vaxtı çatmadığı mövqeyini sərgiləyəcək. Fikrimcə, iki il müddətinə müşahidə missiyasının göndərilməsi proseslərin uzadılmasına hesablanıb. Hesab edirəm ki, Azərbaycanın iradəsi ilə tez bir zamanda Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanması üçün kifayət qədər real şərtlər mövcuddur. Aİ bu şərtlərdən çıxış etmiş olsaydı, daha optimal mövqe sərgiləyərdi. Bununla həm də Cənubi Qafqaz regionunda ümumi sülhün, təhlükəsizliyin təmin olunması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səmimi addım atmaq istəyini nümayiş etdirə bilərdi", - deyə E.Mirbəşiroğlu əlavə edib.

Deputat hesab edir ki, son qərarlar Aİ-nin Azərbaycan- Ermənistan münasibətlərinin normallaşması istiqamətindəki fəaliyyətinin səmimiliyinə şübhə yaradır. O vurğulayıb ki, Azərbaycanla Avropa arasında əhəmiyyətli əməkdaşlıq istiqamətləri mövcuddur və bu, Avropa üçün bu gün həyati vacib əhəmiyyət kəsb edir. Buna baxmayaraq, Avropa Parlamenti Azərbaycana qarşı qərəzli qətnamə qəbul edir, ölkəmizlə razılaşdırılmadan müşahidə missiyasını Ermənistan ərazisinə göndərir.

Deputat sonda vurğulayıb ki, Aİ missiyanın məqsədinin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına xidmət etdiyini desə də, Azərbaycanın razılığı olmadan missiyanın göndərilməsi məqsədin heç də xoşniyyətli olmadığına dəlalət edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Kremlin "kukla ölkəsi"nə növbəti sürprizi

## Rusiya-Ermənistan münasibətlərində böhran daha da dərinləşir

**Son bir ayda cərəyan edən siyasi proseslər fonunda Ermənistanın baş naziri Nikol Paşinyanın hərəkətləri Moskvanı təəccübləndirir və qıcıqlandırır. Yəni Ermənistan iqtidarı bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atmaqda davam edir. Onlardan daha çox narahatlıq doğuranı anti-Rusiya əhvali-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsi və paralel olaraq Ermənistanda Rusiyanın dayaqlarının laxladılmasıdır. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və N.Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, N.Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir.**

Əsas diqqətçəkən məqamlardan biri də son vaxtlar sabiq prezidentlər Serj Sarkisyanla Robert Koçaryanın ortalarda görünməməsidir. Erməni mediası yazır ki, Robert Koçaryanın artıq siyasi meydandan çəkilməsi, nəzarətindəki media orqanlarının başını buraxması haqda məqalələr dərc edilir. "Hraparak" yazıb ki, Koçaryan və onun ailəsinin adı ilə bağlı olan media orqanlarında ixtisarlar başlayıb, onların maliyyəsi kəsilib. Qeyd olunur ki, Koçaryan siyasi meydanı tərk etməsinə dair komandasını da məlumatlandırıb, siyasi arenada aktiv şəkildə görünməmək, passivləşmək qərarını onların diqqətinə çatdırıb.

Göründüyü kimi, keçmiş hərbi xunta məğlub Ermənistanda etimadı tam itirdiklərini dərk edərək kənara çəkilirlər. Ancaq daha böyük ehtimal odur ki, Rusiyanın Ermənistanın üzərindən əlini çəkməsi faktı Robertə aradan çıxmaqdan başqa yolu qalmadığını dərk etdirib. Başqa bir ehtimal isə odur ki, sabiqlər Kremldən təlimat alıblar ki, Rusiyanın layihəsi olan Vardanyanın yolunu bir qədər də açmaq lazımdır. "4rd.am" nəşri yazır ki, Vardanyan Xankəndiyə formal olaraq yerləşdirilib, o, Qərbpərəst Paşinyana rəqib olaraq hazırlanır və yaxın perspektivdə ona Ermənistan vətəndaşlığı verilə və ölkənin rəhbərliyinə gətirilə bilər.

Bu arada erməni analitik Tevos Arşakyan deyib ki, Paşinyan hakimiyyəti rusları rədd edib avropalıları seçməklə bir tərəfdən Moskvaya qara bir "quş" qoydu, digər tərəfdən də dünyaya Ermənistanı Qərbə doğru çevirdiklərini göstərdi. Ermənistan vasitəsilə regiona nüfuz edən Qərb Rusiyanı sıxışdırıb çıxarmaq kimi geosiyasi məqsədlərini həyata keçirir: "Bəs İrəvanın xarici siyasətini Moskvadan Brüsselə dəyişməsində günahkar kimdir? 44 günlük müharibədə və ondan sonrakı dövrdə Ermənistana xəyanət edən yalnız Rusiyanın özüdür. Kreml Azərbaycan və Türkiyəni razı salmaq üçün regionda yeganə müttəfiqinin maraqlarını heçə saydı. Doğrudanmı, Moskva bu qədər sadəlövh idi ki, İrəvanda heç bir əks tədbir görülməyəcəyini düşünürdü? Hətta küncə sıxışdırılmış siçan vəhşi heyvana çevrilir. Təbii ki, Rusiyanın hələ də Ermənistana qarşı çoxlu təzyiq rıçaqları var. Unutmayaq ki, ölkəmiz, sözün əsl mənasında, Rusiya hərbçiləri və FTX-si ilə doludur. Şübhə etmirəm ki, yaxın günlərdə İrəvana qarşı bütün bu təzyiq rıçaqlarından istifadə olunacaq. Və bu kontekstdə Rusiyanın ərazimizdə hərbi mövcudluğunun dayandırılması məsələsi yenidən kəskin şəkildə ortaya çıxır".

Erməni ekspert Albert Minosyan isə deyib ki, dünyada heç bir ölkə Ermənistana tərəfdaş kimi baxmır, etibar etmir: "Kremlə qarşı çıxmağa çox gec qalınıb. Ən yaxşı halda, bu gün Ermənistana Rusiyanın vassalı, "kukla ölkəsi" kimi baxırlar. Rusiya ermənilərin müttəfiqi deyil. Ermənistan hakimiyyəti isə son zamanlar həyasızcasına hər şeyi etdi ki, ölkə atılmış olsun. Atılmış ölkə nə deməkdir: dünyada heç kim sənə partnyor kimi baxmır, etibar etmir. Qərbə meyillər güclənsə də, nə etsən də, ən yaxşı halda sənə Rusiyanın vassalı kimi baxacaqlar. Görünür, bizim hakimiyyət dövlətçilik siyasətini rəhbər tutmur. Misal üçün, müharibə gedirdi, amma onlar susurdular, Azərbaycanın nə qədər irəlilədiyini, nə qədər itki verdiyimizi açıqlamırdılar. Müharibənin dördüncü günü, eləcə də əvvəlki və sonrakı günlər göstərdi ki, Ermənistanda xarici işlər naziri yoxdur. Rusiya Dövlət Təhlükəsizlik Komitəsinin agenti var".

Erməni siyasətçi ölkəsinin başqalarının "kuklası" olduğunu belə vurğulayıb: "Rusiya bizə nə iqtisadi, nə də hərbi yardım edir. Müharibədə məğlubiyyətdən sonra etiraf etdilər ki, biz 80-ci illərin silahları ilə döyüşürük. Halbuki bizə hər gün ordunun müasir silahlarla təchiz edildiyinə dair yalanlar danışırlar. Bu gün biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından üz çeviririk. Gecikmiş addım idi. Bu gün bizim eyni təşkilatda yer aldığımız ölkələr Ermənistana tərəfdaş deməyə utanırlar, üzümüzə tüpürürlər. Biz indi dilənçi vəziyyətindəyik".

Beləliklə, Ermənistanda hazırda baş verənlər bu ölkəni daha sürətlə hərtərəfli iflasa doğru aparır. Çünki Ermənistan xarici himayədarları olmadan yaşaya bilmək iqtidarında olan ölkə deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - QAYIDIŞ KONSEPSİYASI

**1. Giriş**

1989-cu ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi təsis edilmiş, 2022-ci ildə "Qərbi Azərbaycan İcması" adını almış təşkilat (İcma) indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur.

Bu Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

**2. Problemin təsviri**

Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayır.

Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Bu aktların, o cümlədən 1918-1921-ci illərdə "Ermənistan respublikası", "Dağlıq Ermənistan respublikası" adlanan qurumların, Sovet İttifaqının, ələlxüsus, Zəngəzur daxil olmaqla azərbaycanlıların üstünlük təşkil etdiyi bir çox bölgələri Ermənistana vermiş və yüz min azərbaycanlının Ermənistandan deportasiyası barədə irqçi qərara imza atmış SSRİ-nin bədnam rəhbəri İosif Stalinin və Ermənistan SSR-in 1987-1991-ci illərdə törətdiyi əməllərin nəticələri hələ də qalmaqdadır.

Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib. Azərbaycanlılara qarşı etnik təmizləmədə və digər cinayətlərdə iştirak etmiş şəxslər və onların əməlləri Ermənistanda dövlət səviyyəsində şöhrətləndirilir.

Presedenti olmayan bu haqsızlıq Ermənistanın hakim dairələrində cəzasızlıq hissi yaratmış və onları Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazilərinə qarşı iddialara, güc tətbiqinə, hərbi işğala, əlavə kütləvi miqyaslı etnik təmizləməyə və insanlıq əleyhinə digər cinayətlərə həvəsləndirib.

Azərbaycan Respublikasının Ermənistanın hərbi hücumu və işğalına qarşı 2020-ci ildə apardığı özünümüdafiə əməliyyatının qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olub və iki ölkə arasında sülh imkanlarını artırıb. Digər tərəfdən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə monoetnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına böyük əngəl törədir.

**3. Hədəf, məqsədlər və yanaşma**

İcma ötən iki əsr ərzində Qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi qəbul etmir və bu ədalətsizliyin nəticələrini rədd edir. İcma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılmasını və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi bəyan edir. Konsepsiya ilə həyata keçiriləcək fəaliyyətin əsas məqsəd və prinsipləri aşağıdakılardır:

- İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların könüllü şəkildə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşmanın əldə edilməsi;
- Geriyə qayıtma prosesinin müvafiq təhlükəsizlik, humanitar, sosial-iqtisadi yardım proqramları ilə təminat altına alınması;
- Geriyə qayıtmış əhalinin yenidən qovulmasına, onlara qarşı hər hansı ayrı-seçkilik həyata keçirilməsinə və zərər vurulmasına imkan verməmək üçün beynəlxalq monitorinq, hesabatlıq, təhlükəsizlik, müdaxilə və digər zəruri fəaliyyətin bərqərar edilməsi;
- Beynəlxalq nəzarət altında yenidənqurma və barışıq tədbirlərinin həyata keçirilməsi yolu ilə, geriyə qayıtmış insanların davamlı reabilitasiya və re-inteqrasiyasının təmin edilməsi.

Qərbi azərbaycanlıların onilliklər ərzində legitim nümayəndəsi kimi İcma qayıdış prosesində fəal rol oynayacaq, maraqlı tərəf kimi aidiyyəti dövlətlər və beynəlxalq təşkilatlar ilə dialoq və əməkdaşlıq aparmaq və onlar tərəfindən legitim tərəf müqabili kimi tanınmaq üçün səy göstərəcək.

Qərbi azərbaycanlıların onlara uzun müddət ərzində qayğı göstərmiş Azərbaycan ilə xüsusi bağları nəzərə alınmalı və öz yurdlarına qayıtdıqdan sonra onların Azərbaycan Respublikası ilə maneəsiz əlaqəsinə imkan yaradılmalıdır.

Qayıdış prosesi Qərbi azərbaycanlıların qovulmadan əvvəlki məskunlaşma konfiqurasiyasını bərpa etməlidir. Qovulmuş azərbaycanlıların qayıdış zamanı müxtəlif bəhanə və hüquqi fəndlərlə pərakəndə səpələnməsi cəhdləri irqçiliyin bir forması və re-inteqrasiyaya maneə olan zərərli yanaşma kimi rədd ediləcək. Bu prinsipdən yayınma ancaq aidiyyəti şəxslərin sərbəst iradəsi və razılığı əsasında baş verə bilər.

Qovulmuş şəxsin geriyə qayıtmaq barədə qərarı könüllü olmalı və onun bu qərarı verə bilməsi üçün ona hüquqları və imkanlar barədə tam məlumat verilməlidir. Müvafiq hüququ olan şəxsin geriyə qayıtmaq qərarını ancaq ləyaqətli və təhlükəsiz şəkildə evinə dönməyin mümkün olmasını, o cümlədən, qayıdış prosesi zamanı və qayıtdıqdan sonra həyatını qura bilməsi üçün müvafiq zəmanət və yetərli həcmdə resurs ayrılacağını, tarixi vətənində fərdi və kollektiv hüquqlarının təmin ediləcəyini yəqin etdikdən sonra verə biləcəyi nəzərə alınmalıdır.

Qayıdış prosesi zamanı qadınlar, uşaqlar və sosial baxımdan həssas əhali qrupuna aid edilən şəxslərin maraqları əsas prioritet kimi nəzərə alınacaq, "Qadınlar, sülh və təhlükəsizlik" yanaşması daxil olmaqla bu sahədə beynəlxalq aləmdə qəbul olunan mütərəqqi konsepsiya və standartlar qayıdış prosesində aparıcı yer tutacaq.

İcma ötən iki əsr ərzində erməni və Azərbaycan xalqları arasında dərin nifaq olduğunu və Ermənistanın beynəlxalq hüquqazidd hərəkətləri nəticəsində hal-hazırda əhəmiyyətli sayda insanın təhlükəsizlik problemlərindən əziyyət çəkdiyini anlayır və yaranmış bütün siyasi, təhlükəsizlik, hüquqi, sosial və humanitar problemlərə görə məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü hesab edir. İcma təhlükəsizlik problemlərinin sülh yolu ilə tənzimləməsi zamanı humanitar təciliyi obyektiv kriteriya kimi qəbul etməklə bərabər, davamlı sülhün bərqərar edilməsində ədalətsizliyin və hüquq pozuntusunun baxılmamış qalma müddətini beynəlxalq diqqətin yetirilməsi üçün əsas kriteriya hesab edir.

Belə ki, hüquq pozuntusu və ədalətsizlik nə qədər öz həllini tapmamış qalırsa, bir o qədər cəzasızlıq hissi güclü olur və daha böyük ədalətsizlik törəyir. Bu, öz növbəsində *fait accompli* və bir ədalətsizliyi daha böyük ədalətsizlik törətməklə unutdurmaq kimi qeyri-insani, zərərli və təhlükəli taktikaları təşviq edir. Bu baxımdan İcma hesab edir ki, böyük haqsızlığa məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpası məsələsi regional təhlükəsizliyin və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin bərpa olunması kontekstində ən ilk sırada baxılmalı olan vəzifədir.

**4. Planlama və icranın əsas mövzuları**

İcma geriyə qayıtma hüququnun beynəlxalq hüququn və insan hüquqlarının ali prinsipi olmasından çıxış etməklə bərabər, bu prosesin asan olmayacağını nəzərə alır. İcma geriyə qayıtma hüququnun reallaşmasına əsas maneənin Ermənistanın müqaviməti olacağını gözləyir. Bundan əlavə, qayıtma prosesi əhəmiyyətli ölçüdə hüquqi məsələlərin həllini, təhlükəsizlik komponentini və böyük miqdarda resurs əldə edilməsini ehtiva edir. Bütün bu vəzifələrin həlli Azərbaycan və Ermənistan ilə yanaşı, geniş beynəlxalq ictimaiyyətin dəstəyinin əldə edilməsini tələb edir.

İcma repatriasiya prosesinin bütün mərhələlərində mərkəzi rol alacaq və repatriasiya başa çatdıqdan sonra da öz fəaliyyətini davam etdirəcək.

Konseptual olaraq, qayıdışın əsas mövzularına dair İcmanın mövqeyi aşağıdakı kimidir.

**4.1. Beynəlxalq hüquqi çərçivə və zəmanət**

İndiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini presedentsiz ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən, hüquqi baxımdan məcburi olan, müvafiq verifikasiya və zəmanət mexanizmini ehtiva edən qərar və razılaşmaların əldə edilməsi ilk vəzifədir. Bu məqsədlə, İcma Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz vətənlərinə qayıtmasına şərait yaratmağın Ermənistanın öhdəliyi kimi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsində də təsbit olunmasına çalışacaq.

Qayıdışın beynəlxalq hüquqi çərçivəsinin formalaşdırılması üçün İcma Azərbaycan Respublikası hökuməti, Ermənistan Respublikası hökuməti, BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər, region ölkələri və digər aidiyyəti dövlətlər və təşkilatlar ilə təmaslara başlayacaq.

**4.2. İcmanın üzvlərinin müəyyən edilməsi və siyahıya alınması**

İndiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlılar və onların törəmələrinin öz vətənlərinə qayıtmaq hüququ var. İcma Azərbaycan Respublikasının və Qərbi azərbaycanlıların məskunlaşdığı digər dövlətlərin əhali reyestri xidmətlərinin yardımından istifadə edərək və müvafiq beynəlxalq metodologiya əsasında İcma üzvlərinin siyahıyaalınmasını həyata keçirəcək. Bu cür siyahıyaalınmada effektiv vasitələrdən birinin aidiyyəti şəxslərin özünü təqdim etməsi olduğunu nəzərə alaraq, onları bu addıma təşviq etmək üçün vətənindən qovulmanın ciddi hüquq pozuntusu olması barədə geniş informasiya kampaniyası aparılacaq və təhlükəsiz və ləyaqətlə geri qayıtmaq yanaşmasının mahiyyəti geniş ictimaiyyətə izah ediləcəkdir.

**4.3. Qayıdış planının hazırlanması**

İcma qayıdış prosesinin nizamlı və effektiv şəkildə həyata keçirmək məqsədilə müvafiq beynəlxalq icraçı tərəfdaş tapmaq üçün səy göstərəcək. Bu tərəfdaşın BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının olmasına üstünlük veriləcək. İcma beynəlxalq icraçı tərəfdaş ilə birlikdə, tətbiq oluna bilən beynəlxalq standartlar əsasında, Azərbaycan hökuməti və Ermənistan hökuməti ilə təmaslar şəraitində qayıdışın detallı planını hazırlayacaq. Qayıdış planı tələb olunan addım və resurslar, dəqiq zaman çərçivəsi göstərilməklə prosesin mərhələlərini və istiqamətlərini təsvir etməlidir.

**4.4. Ermənistanın hüquqi çərçivəsinə münasibət**

Qərbi azərbaycanlılar "Ermənistan Respublikası" adlanan siyasi-hüquqi vahidin effektiv nəzarət etdiyi ərazidən zorla qovulduqları üçün bu dövlətin təşəkkül tapmasında, onun konstitusion çərçivəsinin və milli və hüquqi xarakterinin formalaşması prosesində iştirak imkanından məhrum ediliblər.

İcma Ermənistan Respublikasının Birləşmiş Millətlər Təşkilatının (BMT) üzvü olduğunu, digər dövlətlərin əksəriyyəti tərəfindən tanındığından agahdır və Ermənistan Respublikasını siyasi-hüquqi reallıq kimi görür. Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmuş olması bu ölkənin üzərinə onun ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq daxil olmaqla onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur. İcma Qərbi azərbaycanlıların Ermənistanın hüquqi sistemi ilə və onun çərçivəsində fərdi və kollektiv qisimdə mümkün fəaliyyətini praktiki məsələ kimi görür, bunu ölkənin ərazisində azərbaycanlılara qarşı törədilmiş hər hansı ədalətsizliyi və hüquqazidd hərəkəti qəbul etmək, qanuni maraqlarından imtina etmək mənasında təfsir və qəbul edilməsini rədd edir.

Ermənistan Respublikası özünün milli hüquqi çərçivəsini azərbaycanlı icmasına əlçatan etməli, azərbaycanlıların bərabər hüquqlarını təmin etməli, onların ana dillərində təhsil almasına, qanunvericilik, icra və məhkəmə orqanlarında Azərbaycan dilindən istifadəsinə imkan yaratmalı və azərbaycanlıların hüquqlarının qorunmasını tam təmin etmək məqsədilə özünün qanunvericiliyinin təkmilləşdirilməsi üçün müvafiq beynəlxalq qurumların hüquqi məsləhət, monitorinq və nəzarət mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlamalıdır.

İstənilən halda, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna malikdirlər, bu hüquq əzəlidir, toxunulmazdır, mütləqdir və həlledici faktordur. Şəxsiyyəti, mülkiyyət hüququnu və digər hüquqları təsdiq edən sənədlərin Ermənistan tərəfindən təqdim edilməsi bu hüququ yaratmır, verilməməsi bu hüququ aradan qaldırmır. Belə sənədlərin verilməsi, sadəcə, formal-texniki məsələ olmaqla hazırda sözügedən ərazilərə nəzarət edən Ermənistan Respublikasının qeyd-şərtsiz yerinə yetirməli olduğu bir öhdəlikdir.

**4.5. Təhlükəsizliyin təmin olunması**

Ermənistan hökumətinin azərbaycanlı əhaliyə qarşı etnik əsaslarla genişmiqyaslı və sistematik zorakılıq törətmiş olması səbəbindən İcma təhlükəsizlik məsələlərində bu dövlətə etibar etmir və ona görə də müvafiq mandatla və Qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət beynəlxalq təhlükəsizlik missiyasının qayıdış olacaq ərazilərə yerləşdirilməsini zəruri hesab edir.

Beynəlxalq missiyanın səlahiyyəti və imkanları təhlükəsizlik vəziyyətindən asılı olacaq. Təhdidlərin qiymətləndirilməsinin müvafiq informasiya toplama və təhlil imkanları tələb etməsini, İcmada bu imkanların olmadığını nəzərə alaraq, İcma bu məsələdə Azərbaycan Respublikası hökumətinin yardımına ümid edir. İcma bu məsələdə Azərbaycan hökumətinin təqdim edə biləcəyi təhdidlərin qiymətləndirilməsini əsas götürəcək.

Missiya qayıdışdan əvvəl yerləşdirilməli, müvafiq əraziləri nəzarətə götürməli, mülki-hərbi əlaqə, polis və mülki idarəetmə səlahiyyətinə malik olmalı, İcmanın zəruri hesab etdiyi müddətdə fəaliyyət göstərməlidir.

İcma beynəlxalq təhlükəsizlik missiyasının mandatının formalaşdırılması və idarə edilməsi üzrə formatda maraqlı tərəf kimi təmsil olunmalıdır.

Hüquq-mühafizə və ədliyyə məsələlərində adekvat iştirakın zəruri şərt olduğunu nəzərə alaraq, azərbaycanlıların yerli təhlükəsizlik qüvvələrini formalaşdırmasına və məhkəmələrdə müvafiq rol almasına şərait yaradılmalıdır.

**4.6. Mülkiyyət məsələləri**

Azərbaycanlılara qarşı törədilmiş bütün hüquq pozuntuları kimi mülkiyyət hüququnun pozulmasının nəticələrinin aradan qaldırılmasına görə də Ermənistan hökuməti məsuliyyət daşıyır. Ermənistan hökuməti azərbaycanlılara məxsus mülkiyyətin və icma torpaqlarının qaytarılmasını təmin etməli, mülkiyyətə vurulmuş zərərə və mülkiyyətdən istifadənin qarşısının alınmasına görə yaranmış itkilərə görə kompensasiya ödəməlidir. Ermənistan hökuməti azərbaycanlıların mülkiyyət hüquqlarının bərpasından irəli gələn bütün xərcləri ödəməli və digər lazımi tədbirləri görməlidir.

**4.7. Re-inteqrasiya və reabilitasiya**

Repatriasiya etmiş azərbaycanlılar qayıtdıqdan sonra ilk dövrlər humanitar yardıma, sonra uzunmüddətli sosial və iqtisadi inkişaf üçün re-inteqrasiya və reabilitasiya proqramına və yardımlara ehtiyac duyacaqlar. İcma bu sahədə müvafiq proqram həyata keçirmək üçün beynəlxalq qurumlar və donorların əsas tərəf müqabili olmaqda qərarlıdır.

Re-inteqrasiya və reabilitasiya tədbirlərinin uğurunun təmin edilməsində yaşayış məskənləri daxilində sosial bağlar və dinamika vacib əhəmiyyət kəsb edir. Təcrübə göstərdiyi kimi, qovulmadan əvvəlki məskunlaşma konfiqurasiyasının qorunub saxlanması sosial bağların bərpasını və beləliklə re-inteqrasiya və reabilitasiyanı asanlaşdırır. Bu baxımdan, qovulmadan əvvəlki məskunlaşma konfiqurasiyasının qorunub saxlanması insan hüquqlarının bir tələbi olmaqla bərabər re-inteqrasiya və reabilitasiyanın uğuru üçün zəruri şərtdir.

**4.8. Mədəni irsin bərpası və qorunması**

İcma BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsin vəziyyətinin dəyərləndirilməsinə, o cümlədən, zərər vurulmuş və yer üzündən silinmiş mədəni irs nümunələrinin siyahısının hazırlanmasına və Ermənistan hökumətinin onları bərpa etmək və qorumaq öhdəliyini icra etməsinə nail olmaq üçün səy göstərəcək.

**4.9. Etnik icmalararası barışıq**

Qərbi azərbaycanlılara qarşı böyük haqsızlıq törədilib. Bu haqsızlıq etnik təmizləmə ilə məhdudlaşmır. Qərbi azərbaycanlıların evlərinə başqa yerdən insanlar köçürülüb. Bu ağrılı keçmişi tarixi yaddaşında saxlamaqla bərabər İcma qəbul edir ki, sülh və inkişafın təmin edilməsinin yolu barışıqdan keçir. Qərbi azərbaycanlılar onların vətəninə başqa ölkələrdən köçürülmüş ermənilərlə dinc və yanaşı yaşamağa hazırdır. İcma barışığa nail olmağın uzun müddət tələb edəcəyini və mürəkkəb olacağını gözləyir. İcma insan hüquqlarına hörməti, hüququn aliliyini və ikili standartların aradan qaldırılmasını barışın əldə edilməsi üçün ən mühüm vasitələr kimi görür. Bu baxımdan, İcma Ermənistanın azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasət və praktikasını dayandırmasına, azərbaycanlılara qarşı cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməsinə, onları şöhrətləndirməyə dərhal son verməsinə, o cümlədən, azərbaycanlılara qarşı cinayətlərdə iştirak etmiş hərbi və siyasi xadimlərə, terrorçulara qoyulmuş abidələri sökməsinə və aparılmış yer adları dəyişikliklərini ləğv etməsinə nail olmaq üçün səylər göstərəcək.

**4.10. İcmanın uzunmüddətli fəaliyyəti**

İcma hesab edir ki, onun missiyası təkcə qayıdış məsələsi ilə məhdudlaşmır. İcma əhali öz vətəninə qayıtdıqdan sonra da təşkilat kimi öz fəaliyyətini, o cümlədən orada yaşayacaq azərbaycanlıların maraqları, hüquqları, inkişafı və təhlükəsizliyinin təmin edilməsi üzrə mütəşəkkil səylərini, bu məqsədlə, Azərbaycan Respublikası, xarici dövlətlər və beynəlxalq təşkilatlar, eləcə də Ermənistan hökuməti ilə və Ermənistan ictimaiyyəti ilə dialoq və qarşılıqlı fəaliyyətini davam etdirmək niyyətindədir.

**5. Yekun müddəalar**

İcma bu konsepsiyanın yerinə yetirilməsində fəallıq və sahiblik göstərəcək, bu məqsədlə qanuni çərçivədə resursların əldə edilməsi üçün səylər göstərəcək. İcma vəziyyətin mümkün dəyişməsindən asılı olaraq, konsepsiyaya dəyişiklik edə bilər.

# Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas məqamları açıqlandı

**Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının yanvarın 26-da keçirilmiş iclasında Qayıdış Konsepsiyasının layihəsinə baxılıb. Sənəd layihəsi səsə qoyularaq təsdiqlənib.**



AZƏRTAC xəbər verir ki, sonra Konsepsiya İcmanın əsas orqanlarının genişləndirilmiş birgə iclasına təqdim olunub.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Qayıdış Konsepsiyasının əsas məramı indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdir. Konsepsiya Qərbi Azərbaycan İcmasının bu sahədə fəaliyyətinin əsas istiqamətlərini müəyyən edən sənəddir.

Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Sənədin əsas məqamları aşağıdakılardır:

- İndiki Ermənistandan qovulmuş bütün azərbaycanlıların və onların törəmələrinin öz yurdlarına qayıtmaq hüququ var. Bu hüququn ləyaqətli və təhlükəsiz şəkildə reallaşmasına şərait yaradılmalı, insanlar ora qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqları təmin olunmalıdır;
- Qayıdış prosesi müvafiq zəmanətləri və verifikasiya mexanizmləri olan beynəlxalq hüquqi təminat çərçivəsində baş verməlidir;
- Qayıdacaq insanların təhlükəsizliyini təmin etmək üçün qayıdış olacaq ərazilərə müvafiq mandatla beynəlxalq sülh missiyası yeridilməlidir. Həmin missiya İcmanın etibar etdiyi ölkələrin qüvvələrindən ibarət olmalıdır;
- Qayıdış prosesində qovulmadan əvvəlki məskunlaşma coğrafiyası bərpa edilməlidir. Geri qayıdanları pərakəndə səpələmək insan hüquqlarına zidd cəhd kimi rədd ediləcək.
- Ermənistan qayıdacaq azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təminatı üzrə beynəlxalq nəzarət və monitorinq mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlamalıdır;
- Qayıdacaq azərbaycanlıların Azərbaycan ilə xüsusi bağları nəzərə alınaraq, onların Azərbaycan Respublikası ilə maneəsiz əlaqəsinə şərait yaradılmalıdır;
- Ermənistan hökuməti qayıdacaq azərbaycanlıların mülkiyyət hüquqlarını bərpa etməli, onların evlərini, icma torpaqlarını qaytarmalıdır;
- Qərbi azərbaycanlılar erməni xalqı ilə barışığa, dinc və yanaşı yaşamağa hazırdır. Ermənistan hökuməti barışığı təşviq etmək üçün səylər göstərməli, dağıdılmış Azərbaycan mədəni irsini bərpa etməli, qorumalı, həyata keçirdiyi yer adları dəyişikliklərini ləğv etməli və azərbaycanlılara qarşı ayrı-seçkilik siyasətinə son verməlidir;
- İcma Qərbi azərbaycanlıların legitim nümayəndəsi və maraqlı tərəf kimi qayıdış prosesi və sonrakı dövrdə bütün müvafiq proseslərdə iştirak etməlidir.

# Baş Prokurorluq Dövlət Gömrük Komitəsində əməliyyat keçirib: 2 vəzifəli şəxs həbs olunub

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Dövlət Gömrük Komitəsi ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində rüşvət alan gömrük işçilərinin qanunsuz əməlləri ifşa edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Dövlət Gömrük Komitəsinin Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi Gömrük dəyərləndirilməsi və risklərin idarə olunması şöbəsinin əməkdaşı Şahin İskəndərovun ölkəyə gətirilmiş avtomobillərə görə ödəniləcək rüsum və digər xərclərin azaldılması müqabilində rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Habelə qeyd edilən dövlət qurumunun Şimal Ərazi Baş Gömrük İdarəsinin Şirvanlı Gömrük Postunun əməkdaşı Cavid Məmmədovun postda yoxlama tədbirlərinin səthi və sürətli aparılması müqabilində rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Cavid Məmmədovun dəfələrlə müxtəlif məbləğlərdə pul vəsaitlərini üzərində gizlədib bəyan etmədən Rusiya Federasiyasına qanunsuz keçirilməsinə köməklik göstərilməsi müqabilində vətəndaşlardan rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan faktlar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işləri başlanıb. Şahin İskəndərov və Cavid Məmmədova Cinayət Məcəlləsinin 311.2 (rüşvət alma) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələrilə ittiham elan edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işləri üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Möhkəm iradə və milli təəssübkeşliyin təcəssümü

### Laçın-Xankəndi yolundakı aksiya 47 gündür davam edir

**Ötən il dekabrın 12-də Şuşa şəhərində - Laçın-Xankəndi yolunda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəalların və QHT təmsilçilərinin başlatdığı aksiya davam edir.**

Etirazçılar ilk gündən Azərbaycan ərazilərində yerləşən yataqların qanunsuz istismarının dayandırılmasını, azərbaycanlı mütəxəssislərin həmin yataqlarda monitorinq keçirməsinə şərait yaradılmasını, eyni zamanda Rusiya sülhməramlı kontingentinin komandanı Andrey Volkovun onlarla görüşə gəlməsini tələb edirlər.

47 gündür davam edən aksiyada "Mina terroruna son!", "Ekoloji terrora son!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır" kimi şüarlar səsləndirilir. Eyni zamanda 10 noyabr üçtərəfli Bəyanatının şərtlərinin pozulduğu, belə ki, ermənilərin Laçın-Xankəndi yolundan humanitar məqsədlə deyil, terrorçuları keçirmək, silah-sursat, mina daşımaları üçün istifadələrini dayandırmaları tələb olunur.

Hər səhər dövlət himnimizlə günə başlayan ekofəallar yorulmadan, gecə-gündüz demədən soyuq, şaxtalı havada haqlı tələblərini irəli sürürlər.




#### Heç bir blokadadan söz gedə bilməz

Aksiya başladığı gündən ermənilər və havadarları tərəfindən onun məqsədinin guya başqa olması ilə bağlı iddialar yayılsa da, deyilənlərin hər zamankı kimi, erməni yalanından başqa bir şey olmadığı açıq-aydın ortadadır. Bununla belə bəzi dövlətlər erməni yalanlarına inanaraq və ya başqa məqsədlər güdərək Azərbaycana qarşı qərəzli münasibət göstərir, guya Qarabağda yaşayan ermənilərin blokadaya alındığını deyir, bununla bağlı narahatlıqlarını ifadə edirlər. Onlar aksiyanı dayandırmağı tələb edərək, Laçın-Xankəndi yolunun ekofəallar tərəfindən guya bağlanılaraq humanitar yüklərin daşınmasına maneə yaratdığını bildirirlər. Amma aksiya müddətində 980-dən çox nəqliyyat vasitəsinin bu yoldan keçidinin təmin edilməsi, həmçinin onların 850-dən çoxunun Rusiya sülhməramlılarına, 120-dən çoxunun isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olması, eyni zamanda Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin BQXK vasitəsilə Ermənistana aparılması deyilənlərin ağ yalandan başqa bir şey olmadığını göstərir.

Aksiya iştirakçıları heç bir zaman humanitar maşınların keçməsini əngəlləməyib. Onu da vurğulayaq ki, bu müddətdə ərazidə hər hansı insidentin yaşanmaması da etirazların dinc aksiya olduğundan xəbər verir.

Prezident İlham Əliyev də telefon danışığı zamanı narahatlığını ifadə edən ABŞ dövlət katibi Antoni Blinkenə Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edib. Dövlət başçısı vurğulayıb ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir.

Prezident İlham Əliyev ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edib.

Ölkəmizin rəhbəri Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını bildirib.

#### Haqlı tələb və hüquqlarımız

Baş verənlər bir daha göstərir ki, etirazçıların məqsədi yalnız onların tələblərinin yerinə yetirilməsi, on illərlə ermənilər tərəfindən həyata keçirilən ekoloji terrora son qoyulması, təbii sərvətlərimizin qeyri-qanuni istismarının dayandırılmasıdır. Bütün bunlar bizim haqlı tələb və hüquqlarımızdır. Azərbaycan hər zaman beynəlxalq hüquq və normalara uyğun addımlar atıb, üzərinə götürdüyü öhdəlikləri vaxtında, hətta daha tez yerinə yetirib. İlham Əliyev atdığı imzaya daim sadiqliyini nümayiş etdirib.

Ermənistan isə müharibədəki məğlubiyyətini qəbul etməyərək yenidən özünə havadarlar axtararaq yekun sülh müqaviləsi prosesini uzatmaq üçün əlindən gələni etməkdədir. Bununla vaxt qazandığını, nəsə əldə edəcəyini düşünsə də, əslində, itirən özüdür. Bunu məğlub ölkənin xalqı isə gec-tez anlayacaqdır. Ermənistandakı fikir ayrılıqları, məğlubiyyətlə barışanların, Azərbaycanın gücünü görənlərin dedikləri də bunu sübut edir.

Azərbaycan xalqı birlikdə hərəkət edir, daim bir olmağı bacarır. Bunu 47 gündür davam edən aksiyadan da görmək mümkündür. Kəskin hava şəraitinə baxmayaraq, etirazçılar milli birlik, əzm, dözüm nümayiş etdirir və tələbləri yerinə yetirilməyənə qədər aksiyanı davam etdirəcəklərini deyirlər. Bu isə möhkəm iradənin, gücün, milli təəssübkeşliyin sübutudur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Avropa Parlamenti Qarabağda separatizmi dirçəltmək istəyir

**Yanvarın 18-də Avropa Parlamenti növbəti dəfə Azərbaycanın əleyhinə qətnamə qəbul etmişdir. Qarabağda yataqları talan edən beynəlxalq şirkətlər Avroparlamentdə belə bir qətnamənin qəbuluna nail olublar, daha dəqiqi, onu satın alıblar desək, yanılmarıq. Nəinki bizim üçün, bütün dünya ictimaiyyəti üçün gözlənilməz olmayan bu hadisənin əvvəlcədən planlaşdırıldığı məlum idi.**

Əvvəla, bu qətnamənin qəbul olunacağına dair məlumat azı bir həftədən artıq idi ki, Ermənistan mediasının gündəmindən düşmürdü. Həmişə də inamla vurğulanırdı ki, Avroparlament qətnamə qəbul edəcək. Xəbərin bütün medianın gündəmini tutması ona işarə verirdi ki, qərar Ermənistanın xeyrinə olacaq. Sanki səs verəcək deputatlar Avropanın yox, Ermənistandan göndərilmiş Vardanyanın təmsilçiləri imiş.

Digər tərəfdən, məsələnin müzakirəyə çıxarıldığı başlıq da onun mətninin erməni lobbisi tərəfindən hazırlandığına şübhə yeri qoymurdu - "Laçın dəhlizində Azərbaycanın blokadasının humanitar nəticələri"... Demək, bu gün Azərbaycan ekofəallarının qanuni və heç bir blokada niyyəti daşımayan aksiyasına "blokada" deyən bəzi beynəlxalq qüvvələrin bu qətnamənin qəbulunda barmağı var. Bəyəm dünya ictimaiyyətinə məlum olan bu aksiyanın forma və tələblərindən Avroparlament deputatlarının xəbəri yoxdur?! Əlbəttə, var. Bəyəm bilmirlər ki, aksiyanın ilk günündən bu yolda humanitar məqsədli maşınlar sərbəst şəkildə hərəkət edir və buna heç bir maneə yoxdur.

Qətnamədə Azərbaycanın guya "Ermənistana təcavüz etdiyi barədə" maddə var ki, bu maddə Avroparlamentin sülh prosesinə tam pozuculuq yolu tutduğuna dair nəticə çıxarmağa imkan verir. Terrorçu erməni silahlı dəstələrini müdafiə edən, daşnakların əlində oyuncağa çevrilən Avropa Parlamentinin bəzi deputatlarının səs verdikləri qətnamənin mətnini sanki Ruben Vardanyan yazıb. Adıçəkilən qətnamənin qəbul edilməsindən bir az əvvəl R.Vardanyanın Fransa televiziyasına ikinci dəfə verdiyi müsahibədə Azərbaycana qarşı səsləndirdiyi böhtan və yalanlar Avropa Parlamentinin qəbul etdiyi bu biabırçı və qərəzli qətnamə ilə üst-üstə düşür. İkinci bir sübut odur ki, həmin talançı Vardanyan gecə-gündüz aləmə car çəkir ki, guya Xankəndidə 120 min erməni, üstəgəl, 30 min uşaq azərbaycanlı aksiya iştirakçılarının etirazı nəticəsində "humanitar fəlakət"lə üzləşib, "həyat yolu"nun bağlanması ermənilərin çıxışını məhdudlaşdırıb. Bu, erməni xislətinə məxsus ağ yalan və uydurmadan başqa bir şey deyil. Hətta xarici ölkələrdən aksiyanı izləməyə gəlmiş media nümayəndələri də gördülər ki, avtomobillərdə Xankəndidən Ermənistana, Ermənistandan Xankəndiyə gedib-gələn sadə ermənilərə gözün üstə qaşın var deyən yoxdur. Elə gün olmur ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) və Rusiya sülhməramlılarının onlarca avtomobili Laçın yolu ilə hərəkət etməsin. Sadəcə aksiya iştirakçılarının məqsədi odur ki, bu yolla Ermənistandan Qarabağa mina və silah-sursat daşınmasının qarşısı alınsın.



Bunlar onu deməyə əsas verir ki, Avropa Parlamenti separatçıları, oğruları, işğalçıları, beynəlxalq hüquq normalarını pozanları dəstəkləməklə özü-özünə hörmətsizlik edirlər. Bu parlamentin ipləri ermənilərin əlində olan bəzi deputatları qrantın hesabına ağa qara deməyə çalışırlar. Onlar bir məqamı unudurlar ki, hər şey göz qabağındadır. Azərbaycanlılar, eləcə də dünyanın tərəqqipərvər insanları Qarabağ iqtisadi rayonunda gedən prosesləri yaxşı görürlər. Və o da dünya ictimaiyyətinə məlumdur ki, Xankəndidəki xunta rejiminin və Vardanyanın saxta mövqeyini əks etdirən qətnaməyə səs verən, adları korrupsiyada hallanan həmin deputatlar ermənilərə saxta havadarlıq nümayiş etdirirlər.

Qətnamədə gülünc doğuran digər bir amil də odur ki, "min ilin ölülərinə qarışmış" "Madrid prinsipləri"nə istinad edilir. Bu fakt Avroparlamentin Qarabağda separatizmi və Yerevanda revanşizmi yenidən dirçəltmək məqsədindən xəbər verir.

Siyasətçilər, hərbçi-ekspertlər və analitiklər də hesab edirlər ki, uzun illər ərzində bəziləri tərəfindən Ermənistan Azərbaycan xalqına qarşı terror siyasəti həyata keçirmək üçün istifadə olunan vasitədir. Avropanın və digər havadarlarının heç bir əhəmiyyət daşımayan qətnamə adlandırdıqları kağız parçası ermənilərin köhnə xəyallarını tərpədir, iblisanə niyyətləri yenidən baş qaldırır. Bu isə heç vaxt baş tutmayacaq xülya və ya yeri gəlsə, "dəmir yumruğ"un təsiri önündə bir anda yox olacaq bir şeydir.

Erməni iftirası və yalanları ilə yoğrulmuş qətnamə Azərbaycanı guya "işğal etdiyi Ermənistan ərazilərindən çəkilməyə" çağırır ki, bu da Avroparlamentdə Fransanın və Ermənistanın həyata keçirmək istədiyi bir hiylədir. Avropalı ermənipərəst parlamentarilər, Ermənistan hakimiyyəti, eləcə də Xankəndidəki xunta rejimi bilməlidirlər ki, onların bu gedişlərinin də sonu yoxdur. Azərbaycanın suveren ərazilərində gizlənmiş qanunsuz erməni silahlı dəstələri öz cinayətkar əməllərini davam etdirdiklərinə görə mövcud vəziyyət belə qala bilməz.

Qəribədir, qətnamədə Azərbaycanın hələ də Ermənistan işğalında saxlanan 8 kəndinin azad edilməsi zərurəti barədə bir kəlmə də deyilmir və bu, Avroparlamentin hazırkı korpusu ilə Azərbaycanın əməkdaşlıq perspektivlərinə yenidən baxmaq zərurətini ortaya qoyur. Parlamentarilərin bu qeyri-obyektivliyi və riyakarlığı sabitliyi və sülh çağırışlarını təhlükə altına alır.

Erməni yalanı və iftirasına bürünmüş bu qətnamə Avroparlamentin deputatlarının Qarabağ yataqlarında talançılıqla məşğul olan Fransa, Kanada, Hindistan və başqa ölkələrin şirkətləri tərəfindən pulla idarə edildiyini deməyə əsas verir. Görünən odur ki, Avropa Parlamentində qəbul edilən bu qərar hər iki xalqın arasında anlaşmaya ciddi mane olur, dialoqa təhlükə yaradır. Bu gün Laçın-Şuşa yolundakı aksiyanın da, ümumi gərginliyin də səbəbi belə qərəzli addımlardır. Xatırladaq ki, Azərbaycanın Qarabağda yaşayan sadə erməni əhali ilə heç bir problemi yoxdur. Bu barədə Prezident İlham Əliyev dəfələrlə bəyanat verib. Rəsmi Bakı ermənilərin təhlükəsizliyini təmin etməyə hər an hazırdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Savaşdan dərs çıxarmayan Ermənistan yenə sərsəmləyir

### Məğlub ölkə yenidən rəsmi səviyyədə müharibəyə çağırışlar edir

**44 günlük müharibədə biabırçı məğlubiyyətindən dərs çıxarmayan Ermənistan son zamanlar yenidən Azərbaycana qarşı revanşist və təxribatçı mövqe sərgiləməyə başlayıb. Xarici havadarlarından aldığı dəstəkdən cuşa gələn məğlub ölkə hətta o dərəcədə ruhlanıb və quduz iştahaya düşüb ki, rəsmi səviyyədə müharibəyə çağırışlar edir.**

Yanvarın 24-də Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Avropa İttifaqı Parlamentinin Xarici Əlaqələr Komitəsindəki çıxışı zamanı Laçın yolu ətrafında yaranmış vəziyyətin müharibə yolu ilə həll edilməsi təklifi də elə bu qəbildəndir və özündə Azərbaycana qarşı ciddi təhdid ehtiva edir. Ermənistan Mirzoyanın dilindən səsləndirdiyi müharibəyə çağırış kimi sərsəmləməsi ilə bölgədə sülhün əldə olunmasına bütün mümkün təxribatçı yollarla mane olmağa çalışdığını bir daha nümayiş etdirir.

#### Üçtərəfli Bəyanata zidd fəaliyyət

Üçtərəfli Bəyanatın imzalanmasından ötən iki il ərzində Ermənistan sülh istiqamətində hansısa real addım atmayıb, əksinə, barışa xələl gətirəcək riyakar fəaliyyətlə məşğul olub. Sülhün əldə olunması istiqamətində Brüsseldə və Soçidə keçirilən görüşlərdə rəsmi İrəvan üzdə sülhə razı olduğunu bildirsə də, hər dəfəsində sülh sazişinin bağlanması ilə əlaqədar əməli işlər görməkdən yayınıb, ölkəmizə qarşı növbəti təxribatlar törətməyə çalışıb.

Üçtərəfli Bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini hələ də Azərbaycan ərazilərindən çıxarmayıb, kommunikasiyaların açılmasını, sərhədlərin delimitasiyasını təmin etməyib, Birinci Qarabağ müharibəsində əsir düşmüş minlərlə azərbaycanlının taleyi və kütləvi məzarlıqlar haqda məlumat verməkdən yayınıb. Eləcə də Ermənistan tərəfindən həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün Laçın yolundan istifadə olunaraq üçtərəfli Bəyanata zidd fəaliyyət göstərilib.

Buna görə də ötən il dekabrın 12-dən Laçın-Xankəndi yolunda ekofəallarımız və QHT nümayəndələrimiz Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində separatçı rejimin təbii sərvətlərimizi talamasına, ekologiyamıza qarşı terror törətməsinə, "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarını həyata keçirməsinə qarşı etiraz edirlər.

Azərbaycan vətəndaş cəmiyyətinin tələbləri arasında Ermənistan tərəfinin Laçın yolundan hərbi məqsədlər, minaların, silah-sursatın və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinə son qoyulması da var.

#### Bəzi qüvvələr İrəvanı revanşizmə həvəsləndirir

Bir aydan çox davam edən dinc etiraz aksiyası zamanı ekofəallar tərəfindən Laçın yolundan humanitar yükləri daşıyan avtomobillərin, eləcə də mülki ermənilərin keçidinə heç bir maneçilik törədilməyib.

Ermənistan isə hər zaman olduğu kimi, Azərbaycan ictimaiyyətinin haqlı narazılığını nümayiş etdirdiyi dinc etiraz aksiyası ilə bağlı qərəzli iddialar səsləndirir, guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması barədə böhtan və yalan xarakterli məlumatlar yayır.

Təəssüf ki, Azərbaycana qarşı qərəzli və riyakar münasibət bəsləyən bəzi ölkələr və təşkilatlar erməni dəyirmanına su tökməklə məşğuldurlar və ölkəmizin Laçın-Xankəndi yolunda milli mənafeləri uğrunda keçirdiyi haqlı etiraz aksiyası ilə bağlı həqiqətdən tamamilə uzaq böhtan xarakterli bəyanatlar səsləndirirlər.

Yanvarın 18-də Avropa Parlamenti İrəvanı revanşizmə, təxribatçı əməllərə iştahlandıran bədnam qətnamə qəbul edib. 30 il müddətində Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlamasına, yüzminlərlə əhalisini yurdundan didərgin salmasına, şəhər və kəndlərini viran qoymasına, təbiətinə qarşı ekoloji terror törətməsinə, eləcə də hazırda ölkəmizə qarşı həyata keçirdiyi təxribatçı əməllərinə göz yuman Avropa Parlamenti kimi riyakar qurumların bu ikilistandartlı fəaliyyətləri isə təbii ki, erməniləri revanşizmə həvəsləndirir.

A.Mirzoyanın Avropa İttifaqı Parlamentinin Xarici Əlaqələr Komitəsində sözügedən tarixdəki çıxışı zamanı səsləndirdiyi riyakar fikirlər də buna bariz nümunədir.

Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində bildirilir ki, Ermənistan xarici işlər nazirinin Laçın yolu ətrafında yaranmış vəziyyətin müharibə yolu ilə həll edilməsi təklifi ciddi təhdiddir: "Xarici işlər naziri Mirzoyanın hərbi həll variantını təklif etməsi Ermənistanın tarixdən dərs çıxartmadığını və 30 il müddətində Azərbaycan ərazilərini işğalda saxlamasının nə ilə nəticələndiyini hələ də anlamadığını göstərir. Ermənistan tərəfinin bu avantürasının qarşısının alınması zəruridir".

#### Mono-etnik dövlətin gülünc ittihamı

Xüsusi vurğulayaq ki, Ermənistan tərəfindən Azərbaycana qarşı səsləndirilən absurd ittihamlardan biri də ermənilərə qarşı nifrətlə bağlıdır. Guya Azərbaycanın məqsədi "etnik təmizləmə" və erməni sakinlərin "deportasiyası"dır. Özü mono-etnik dövlət olan, yüzminlərlə azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən, ümumiyyətlə, ərazisində yaşayan bütün etnik xalqları məhv və deportasiya edən Ermənistanın Azərbaycana qarşı səsləndirdiyi bu ittiham da gülünc doğurur və qəbuledilməzdir. Müstəqil qərar qəbul etmək iqtidarında olmayan və ipini başqalarının əlinə verən Ermənistan indi də elə özü üçün xeyirli ola biləcək sülh müqaviləsinin imzalanmasına maneçilik törətmək üçün Laçın yolunda baş verənlərlə bağlı manipulyasiya etməyə çalışır.

İrəvan xarici havadarlarına güvənərək, əslində, özünün məhvi olacaq müharibə ilə bağlı sərsəm çağırışlar edir. Amma bu da qəribədir...

Ola bilməz ki, hiyləgər Ermənistan rəhbərliyi Vətən müharibəsinin o 44 günündə zəng etmədiyi, yalvarmadığı dövlət başçısı qalmadığını, amma yenə də biabırçı məğlubiyyətdən ölkəsini heç bir qüvvənin xilas edə bilmədiyini unutmuş olsun. Odur ki, belə bir fikir formalaşır: sadəcə Ermənistan sülh sazişini imzalamağı bacardıqca uzatmağa, xarici havadarlarının dəstəyi ilə məkrli planlarına nail olmağa çalışır.

Amma Ermənistan ya öz xoşu ilə, ya da zorla Azərbaycanın sülhlə bağlı irəli sürdüyü 5 baza prinsipini qəbul etməyə məhkumdur. "Məzlum" hayların dünyada saldıqları yalançı hay-küy isə sərhədlərin delimitasiya olunmasına, kommunikasiya xətlərinin açılmasına, erməni qanunsuz silahlı birləşmələrinin ərazilərimizi tərk etməsinə heç bir maneə törədə bilməyəcək. Bir sözlə, Azərbaycan milli maraqlarını qətiyyətlə təmin edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR



## "Çünki oldun..." əkinçi

**Ölkənin hər bölgəsində olduğu kimi, Ağstafa rayonunda da əkin sahələrindən daha səmərəli istifadə olunması qarşıda duran ən mühüm məsələlərdəndir. Bu, səbəbsiz deyil. Ən müxtəlif səbəblərdən ərzağa artan tələbat fonunda başqa çıxış yolu sadəcə yoxdur.**

Bu gün rayonda 21501 hektar əkin sahəsi mövcuddur ki, onun da 9 min hektarında taxıl yetişdirilir. Dövlətin taxılçılığın inkişafı ilə bağlı verdiyi dəstəkdən yararlanan fermerlər hər il uğurlarını artırırlar. Bu baxımdan keçən il də istisna olmamışdır - 2022-ci ildə zəmilərin hər hektarından yüksək məhsul götürülmüşdür. Fermerlər keçən ilin məhsulu üçün 9015,6 hektarda səpin aparmışlar. Bunun 6952,6 hektarı buğda, 2063 hektarı arpa idi. Rayon üzrə ümumi məhsuldarlıq hər hektar buğda sahəsi üçün 36,5, arpa üzrə 28,7 sentner olmuşdur.

Cari mövsüm ağstafalı fermerlər taxıl əkini sahələrini bir qədər də genişləndirmişlər. Onlar 2023-cü ilin məhsulu üçün 11 min hektarda şum qaldırmışlar ki, onun da 7151,1 hektarı buğda, 2788,5 hektarı arpa sahələridir. Ümumi əkinin 8469,6 hektarı suvarılan, 1500 hektarı dəmyə şəraitindədir. Artıq suvarılan 6970 hektarda suvarma işi başa çatmışdır.

Keçən il Ağstafada həmçinin 417,1 hektarda qarğıdalı, 715,5 hektarda kartof, 1166 hektarda günəbaxan, 99,2 hektarda paxlalı bitkilər, 461 hektarda tərəvəz və 330 hektarda digər bitkilər yetişdirilmişdir. Rayon üzrə məhsuldarlıq qarğıdalı üzrə 44, kartof üzrə 300, günəbaxan üzrə 21,4, paxlalı bitkilər üzrə 18,1 sentner olmuşdur. Üzümçülüyə gəldikdə, Ağstafada bu sahənin də inkişafına xüsusi diqqət var. Dünyanın bir çox ölkəsindən gətirilən məhsuldar sortlar hesabına üzüm plantasiyalarının həcmi xeyli genişləndirilmişdir. Hazırda rayonda 497,9 hektar üzüm bağı mövcuddur ki, onun da 473 hektarı barverəndir. Keçən il həmin bağlardan 75122 sentner üzüm yığılmışdır.

Rayonda kənd təsərrüfatının digər sahələrində də uğurlu göstəricilərə nail olunmuşdur. Belə ki, il ərzində sahə və bağlardan 22,3 min ton kartof, 9,5 min ton tərəvəz, 2,5 min ton bostan bitkiləri, 14,7 min ton meyvə toplanmışdır. Heyvandarlıq məhsulları istehsalı da nəzərəçarpacaq dərəcədə artmışdır. Keçən il istehsal olunan 4649 ton ət, 17370 ton süd bunu sübut edur. Kənd təsərrüfatında ənənəvi sahələrin dirçəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində keçən il habelə 3,2 ton barama istehsal olunmuşdur.

Ağstafada arıçılığın da inkişafı üçün geniş imkanlar var. Hazırda rayonda 347 nəfər 7104 arı ailəsinə baxır. Keçən il ümumilikdə arıçılar 20 tondan çox bal istehsal etmişlər.

Məlum olduğu kimi, Ağstafa su ilə aztəminatlı rayonlar sırasındadır. Xüsusilə yay mövsümündə əkin sahələrinin suvarılmasında bir sıra problemlər yaranır. Bu nəzərə alınaraq rayon ərazisindən keçən Kür və Ağstafa çaylarından istifadə məqsədilə tədbirlər planı hazırlanmışdır. Həmin plan çərçivəsində Düz Qışlaq, Qarahəsənli, Xılxına, Pirli kəndlərinin 3310 hektar əkin sahəsini suvarmaq üçün 41,49 kilometr daxili suvarma arxlarına beton üzlük çəkilmiş, 581 hidrotexniki qurğu quraşdırılmışdır. "Acıdərə"dən gələn sel sularının qarşısını almaq üçün isə su bəndi tikilmişdir. Yay aylarında həmin bənddə yığılan su ilə Dağkəsəmən və qonşu kəndlərin əkin sahələrini suvarmaq mümkün olacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Gələcəyin özülü bu gün məktəbdə qoyulur

### Bunu Tərtərdə də yaxşı anlayırlar

**Tərtərdə digər sahələrlə yanaşı, təhsilin maddi-texniki bazasının gücləndirilməsinə də böyük önəm verilir. Yeni məktəblər, uşaq bağçaları tikilib istifadəyə verilir, yüksək intellektual səviyyəyə, müasir dünyagörüşə, yeni vətənpərvər nəslin yetişməsinə xüsusi diqqət göstərilir.**

Bu günlər Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov 240 şagirdlik Dəmirçilər kənd tam orta məktəbində mövcud şəraitlə yaxından tanış olub, pedaqoji və şagird kollektivləri ilə görüşüb, onların qayğılarını öyrənib. Məktəbdə görülmüş işlərlə yaxından tanış olan M.Məmmədov tədris və təlim-tərbiyə prosesi ilə maraqlanıb, pedaqoji kollektivə şagirdlərin dərsdənyayınma hallarına yol verilməməsini, valideynlərlə sıx əlaqə saxlanmasını, valideyn komitələrinin bu işə cəlb olunmasını, məktəbdə gündəlik gigiyenik qaydalara əməl olunmasını tövsiyə edib. Sonra o, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Milli Ordunun qazandığı qələbə və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan tərtərlilər haqqında məlumat verib, onların hər kəsə örnək olan həyatlarından, döyüş şücaətlərindən danışıb, məktəblilərə təhsildə uğurlar arzulayıb.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Aqrar sahə üzrə informasiya və məsləhət xidmətləri "Bakı KOB evi"ndə də göstərilir

**"Bakı KOB evi"ndə sahibkarlara bir sıra dövlət qurumları, o cümlədən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aqrar sahənin müxtəlif istiqamətlərinə dair informasiya və məsləhət xidmətləri göstərilir.**



Fermerlər aqrar sahə ilə bağlı informasiya və məsləhət xidməti üçün Dövlət Aqrar İnkişaf mərkəzləri (DAİM), Xaçmaz və Yevlax KOB evləri, regional "ASAN xidmət" mərkəzləri ilə yanaşı, "Bakı KOB evi"nə də müraciət edə bilərlər.

"Bakı KOB evi"ndə sahibkarlara kənd təsərrüfatı texnikalarının, gübrə və pestisidlərin satışı, aqrotexniki xidmətlərin göstərilməsi, subsidiyaların verilməsi, güzəştli maliyyələşmə, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınması proseduru və elektron portaldan istifadəyə dair informasiya və məsləhət xidmətləri təqdim olunur.

## Keçən il "Kənddən şəhərə" yarmarkalarında 48 rayondan 1384 fermer öz məhsullarını satışa çıxarıb

**2022-ci ildə Bakı və Abşeronda təşkil olunan "Kənddən şəhərə" həftəsonu yarmarkalarında 48 rayondan 1384 fermer öz məhsulunu satışa çıxarıb. Yarmarkalarda fermerlər tərəfindən alıcılara 100-dən artıq çeşiddə kənd təsərrüfatı məhsulu təqdim olunub.**

Yarmarkaların təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və şəhər sakinlərinin kənd təsərrüfarı məhsullarına olan tələbatını daha dolğun təmin etməkdir.

"Kənddən şəhərə" yarmarkasında Elekron Kənd Təsərrüfatı İnformasiya Sistemində şəxsi kabineti olan, fəaliyyət növünə uyğun olaraq dövlətdən subsidiya alan fermerlər iştirak edirlər. Yarmarkada iştirak etmək istəyən fermerlər əvvəlcədən qeydiyyatdan keçir, şəxsi məlumatlarını, satmaq istədiyi məhsul barədə qeydləri sistemə daxil edirlər. Fermerin müraciəti əsasında ona öz məhsulunu yarmarkaya gətirmək üçün nəqliyyat vasitəsi ayrılır, məhsulun satış nöqtəsinə ödənişsiz çatdırılması təmin edilir.

Yarmarkada iştirak edən fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və. s) təmin olunurlar.

## Qobustanda "Aberdin-Anqus" cinsli inəklərin satışı davam edir

**Xəbər verildiyi kimi, "Aqroservis" ASC-nın tabeliyindəki Qobustan Heyvandarlıq Nümayiş Kompleksinə xaricdən yeni cins damazlıq heyvanlar gətirilib.**

"Aberdin-Anqus" cinsli inəklər kompleksin iribuynuzlu heyvanların saxlanma fermasında standartlara uyğun şəraitdə saxlanılır, qidalandırılır və onlara baytar nəzarəti edilir. Karantin müddəti bitdiyinə görə artıq inəklərin satışına başlanılıb və hazırda satış davam edir.

Qeyd edək ki, Avropada geniş yayılmış və vətəni Şotlandiya olan cinslərdən olan ətlik Aberdin-Anqus inəkləri ekoloji şəraitə tez uyğunlaşan cins damazlıq heyvanlardır. Bu heyvanlar yerli cinslərin damazlıq xüsusiyyətlərinin təkmilləşdirilməsində istifadə olunur. Aberdin-Anqus inəklərinin məhsuldarlıq göstəriciləri olduqca yüksəkdir. Bu inəklərin ətində yağ faizi digər inəklərə nisbətən 6 dəfə aşağıdır. Digər cinslərin ətində yağlılıq dərəcəsi 35-36, Aberdin-Anqus inəklərində isə 6-7 faiz olur. Buğaların canlı çəkisi 900-1100, düyələrin canlı çəkisi isə 500-600 kiloqram olur. Ət çıxımı 60-65 faizə çatır. 12 aylıq cöngələrin canlı çəkisi 350 kiloqrama çatır və intensiv yemləmə zamanı çəki sutkada 800-850 qram artır.

## "Şabranın üzümü, bir mirvari düzümü"



**Şimal bölgəsinin fərqli təbiətə, geniş aqrar potensiala malik rayonlarından biri də Şabrandır. Bu baxımdan ölkəmizdə həyata keçirilən layihələrin bir çoxunun Şabrandan başlaması təsadüfi deyil. Ümumilikdə rayon ən müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişli ərazilərə malikdir və belə məhsullardan biri də üzümdür.**

Şabranda da üzümçülüyün tarixi qədimdir. Bu günə gəldikdə, hazırda rayon üzrə 385 hektar üzüm sahəsi var. Ağ və qara "Kişmişi", "Ağadayı", "Mirəndi", "Təbrizi" və s. rayonda daha çox əkilib-becərilən sortlardandır. Son illər fermerlər xarici ölkələrdən gətirdikləri yeni üzüm sortlarını da sınaqdan keçiriblər. Məsələn, Özbəkistandan gətirilən "Gəlinbarmağı" sortu özünü doğruldub. Həm məhsuldarlığı, həm də budaqlarının möhkəmliyi üzümçüləri qane edir. Başqa bir sort isə İspaniyadan gətirilib. Onun da məhsuldarlığı yüksəkdir. Bəzən bir salxımı 7-8 kiloqram gəlir. Belə sortdan kim imtina edər ki...

Rayonda iri üzümçülük təsərrüfatları fəaliyyət göstərir. "Vinneru-Soarb" MMC-nin torpaq sahəsi əsasən Ağbaş kəndindədir. MMC 121 hektarın cəmi 10 hektarında süfrə üzümü yetişdirir. Yerdə qalan ərazilərdə becərilən isə texniki sortlardır. Bu müəssisənin üzümləri əvvəlki illərdə Belarus, Ukrayna və Rusiyaya daşınırdı və MMC bundan xeyli gəlir götürürdü. Hazırda məlum səbəblə bağlı məhsulun yalnız bir hissəsi ixrac olunur. Yerdə qalan üzüm ölkəmizdəki şərab emalı müəssisələrinə satılır.

"Zaman" və "Turaz" MMC-lər də uzun illərdir üzümçülüklə məşğul olurlar. Gəndob və Dəvəçi kəndlərində yerləşən müəssisələrin 44 hektar üzüm bağları var. Əsasən süfrə üzümü yetişdirən "Turaz" MMC 12 min tonluq saxlama kamerasına da malikdir. Təkcə Şabrandan deyil, ətraf rayonlardan da bura məhsul saxlamaq üçün gələn olur. Alma, nektarin, armud və s. meyvələr həmin soyuducu anbarlarda təzə dərilmiş kimi qalır.

Şəxsi təsərrüfatlarında üzüm yetişdirənlərin və təbii ki, fermerlərin ölkənin iri ticarət mərkəzləri ilə sıx əlaqələri var. Taxtalat kəndində 9 hektar əraidə üzümçülüklə məşğul olan Əhməd Səmədov yetişdirdiyi süfrə üzümünü əsasən paytaxtda və Sumqayıtda satır. Bunun üçün o, iri ticarət mərkəzləri ilə əvvəlcədən müqavilə bağlayır. Ona görə də satışda problemi yoxdur.

### Rayon fermerlərini üzümçülükdəki bugünkü məhsuldarlıq qane etmir

İndi Əhməd Səmədov üzüm bağını bir qədər də genişləndirmək fikrinə düşüb. Deyir ki, məhsul vaxtında və sərfəli qiymətə satılırsa, onu genişləndirmək lazımdır.

Üzümçülərin dərman preparatları sarıdan da problemləri yoxdur. Bu isə üzümçülükdə əsas şərtdir. Şabran üzümçülərini yeganə qane etməyən məhsuldarlıqdır. Bu səbəbdən şabranlı fermerlər məhsuldar sortların əkinini genişləndirməyi hədəfləyiblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## "İrəvan"lılar rəqib tanımırlar



**Göygöl rayonunda idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Bunun üçün rayonda bütün şərait yaradılmışdır. Olimpiya İdman Kompleksi, Uşaq-Gənclər İdman və Şahmat məktəbləri, bir neçə idman klubu və bölməsi göygöllülərin ixtiyarındadır.**

Onların sırasında iki il əvvəl yaradılan "İrəvan" idman klubu var. Qərbi Azərbaycan İcmasının dəstək verdiyi "İrəvan" göstərdiyi nəticələrlə hər zaman öndədir. Klub mütəmadi olaraq Göygöl Rayon Gənclər və İdman İdarəsi ilə birlikdə müxtəlif növlər üzrə rayondaxili turnirlər, birinciliklər keçirir.

Hazırda "İrəvan"da 200 nəfərə yaxın gənc idmanla məşğul olur. Onların peşəkarlığını artırmaq, yeniyetmə və gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq üçün klub mütəmadi olaraq daxili yarışlar, rayon birincilikləri, açıq çempionatlar və kütləvi idman tədbirləri təşkil edir.

Kluba bir çox beynəlxalq idman yarışında yüksək nəticələr əldə edən Fəxri Cəfərov rəhbərlik edir. Onun təşəbbüsü ilə bu gün klubun tərkibində idmanın 6 növü üzrə bölmə açılıb. Klubun yetirmələrinin Azərbaycan, dünya və Avropa çempionatlarında fərqlənmələrində də F.Cəfərovun əməyi çoxdur. Yeri gəlmişkən, qeyd edək ki, Fəxri Cəfərov özü 2021-ci ildə Rusiya Federasiyasının Moskva şəhərində keçirilən "ABC JJ" idman növü üzrə dünya çempionatında qızıl medal qazanmışdır. Onun yetirmələrindən isə Nail Əzizov Amsterdamda keçirilən idmanın qarışıq döyüş növü üzrə Avropa çempionatından gümüş, Məhəmməd Məmmədli Rusiya Federasiyasının Pyatiqorsk şəhərində keçirilən açıq region turnirindən qızıl, Yusif Qurbanzadə, Ayxan Kakayev, Səmayə Şahvələdli, Akif Əliyev, Xanlar Əliyev, Feyzulla İsmayılov, Yusif Qurbanzadə, Akif Əliyev Gürcüstandan qızıl medalla dönmüşlər. Bundan başqa, Azərbaycan çempionatlarında qarışıq idman növləri üzrə Kamran Aslanov, Amin Məmmədov, Ayxan Kakayev, Aysun Kazımova, beynəlxalq taekvondo və hapkido idman növləi üzrə Ağamirzə Mahmudbəyli, Aydın Hacıyev, Yusif Qurbanzadə, Məhəmməd Məmmədli, Raul Hüseynzadə, Nuray Sadıqova, "Savate" (fransız boksu) idman növü üzrə İbrahim İbrahimli, Nuray Məmmədova, Elvira Nəsirova, universal döyüş idman növü üzrə Çinarə Novruzova və Talib Sadıqov yüksək nəticə göstərmşlər. Amma bunlar da hələ "İrəvan"lıların qələbələrinin tam siyahısı deyil.

Keçən il beynəlxalq taekvondo idman növü üzrə Hapkido Federasiyasının keçirdiyi açıq Bakı birinciliyində "İrəvan" idman klubunun yetirmələri yüksək nəticələr göstərmişlər. 16 idmançıdan 12 nəfəri 1-ci, 2 nəfər 2-ci, 2 nəfər 3-cü olmuşdur. Bütün bu uğurlardan sonra Qarışıq İdman Növü Federasiyasının keçirdiyi nominasiyada "İrəvan"nın "İlin ən yaxşı idman klubu" seçilməsi təbiidir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Giləzi-Xızı avtomobil yolunun Giləzi qəsəbəsindən keçən hissəsi əsaslı təmir olunur

**Respublika əhəmiyyətli Giləzi-Xızı avtomobil yolunun Giləzi qəsəbəsindən keçən hissəsində əsaslı təmir işlərinə start verilib.**

Uzun müddət əsaslı şəkildə təmir olunmadan istismar olunan yolun sözügedən hissəsində asfalt-beton örtüyündə deformasiyalar və qabarmalar əmələ gəlmişdi. Bu isə öz növbəsində vətəndaşların rahat gediş-gəlişini təmin etmirdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən hazırda qeyd edilən problem aradan qaldırılır.

Uzunluğu 3,8 km təşkil edən avtomobil yolunun sözügedən hissəsinin eni 8-16 metr olmaqla dəyişir.

İşlər texnoloji ardıcıllıqla sürətlə və keyfiyyətlə həyata keçirilir. Təmir işlərinin tərtib olunmuş qrafikə uyğun, vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.



# Azercell abunəçilərinin nəzərinə

Təqdim edilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və müştərilərə təklif olunan tariflərin optimallaşdırılması məqsədilə 27 fevral 2023-cü il tarixindən etibarən, "Azercell Telekom" MMC-nin fakturasız (Sim-Sim) və fakturalı xətt sisteminin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş "SMS paketləri", "Danışıq paketləri", bəzi "Əlavə Dəyər" xidmətləri, həmçinin "Hədsiz tarif paketi çərçivəsində güzəştli" kampaniya ləğv ediləcək. Göstərilən tarixədək abunəçilər müvafiq istifadə müddəti bitənədək müvafiq paket/xidmət/kampaniyadan istifadəyə davam edə biləcəklər.

| № | Ləğv olunan paket/xidmət/kampaniyaların adları |
|---|---|
| 1. | SMS paketi (50 SMS) |
| 2. | SMS paketi (100 SMS) |
| 3. | SMS paketi (200 SMS) |
| 4. | SMS paketi (250 SMS) |
| 5. | SMS paketi (500 SMS) |
| 6. | "SOCAR" SMS Paketi (50 SMS) |
| 7. | "SOCAR" SMS Paketi (20 SMS) |
| 8. | "SOCAR" SMS Paketi (100 SMS) |
| 9. | 200/400/600 dəqiqə danışıq paketləri |
| 10. | SOCAR 60 dəqiqə paketi |
| 11. | SOCAR 500 dəqiqə paketi |
| 12. | SOCAR 1500 dəqiqə paketi |
| 13. | Portal *111# Özünə Xidmət |
| 14. | Hazır SMS xidməti |
| 15. | Twitter SMS xidməti |
| 16. | Finanscell xidməti |
| 17. | "Hədsiz tarif paketi çərçivəsində güzəştli" kampaniya |

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrə tələb olunan oksigen qazının satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilk yardım çantalarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***



## "Taleh" ATSC-nin səhmdarlarının nəzərinə

27 fevral 2023-cü il tarixdə "Taleh" Açıq Tipli Səhmdar Cəmiyyətinin təsisçilərinin növbədənkənar iclası keçiriləcəkdir.
Gündəlikdə duran məsələ:
1. Cəmiyyətin Nizamnaməsinin yeni redaksiyada qəbul edilməsi.

**Ünvan: İmişli şəhəri, H.Əliyev prospekti, 1**
**Telefon: (050) 366-55-47**

***Rəhbərlik***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**






# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Böyük Çillə - Qara qış

**Erkən düşüncədə qış Çillələrə və Boz aya bölünür. Çillə əslində "cehl" sözündən olub qırx rəqəmini bildirir. El-oba arasında qışın ən soyuq dövrünə, uğursuz hadisələrə "çillə" deyilir və ağırlıq, çətinlik mənasında başa düşülür.**



Bir çox hallarda qışın əvəzedicisi kimi çillə sözü dərd-bəla, ağrı-acı, çətinlik, müşkül anlamındadır. Xalq arasında "çillə çəkmək", "çillə tökmək", "çillə-dağ eləmək", "çillə kəsmək" deyimləri də vardır ki, həmin ifadələr əslində əzab-əziyyət çəkmək, dərd-bəlanı tökmək, ağrı-acını, xəstəliyi, müşkülü kəsmək mənalarını daşıyır. Qışı dərd-bəla, çətinlik kimi qəbul etdiklərindən ulularımız onu iki yerə bölərək Böyük Çillə (dekabrın 20-dən yanvarın 30-dək olan qırxgünlük dönəm) və Kiçik Çillə (fevralın 1-dən 20-dək olan iyirmigünlük dönəm) adlandırmışlar. Qış yerini yaza təhvil verən zaman yandırılan tonqala el arasında "çillə qovan tonqal" deyilməsi və Novruzqabağı keçirilən mərasimlərə "çillə çıxartma", "çillə kəsmə" adı verilməsi də qışın ağrı-acı, dərd-bəla, sıxıntı kimi çillə obrazında folklor biçini qazandığını göstərir.

El arasında geniş yer alan "Qara qış", Böyük Çillə, Kiçik Çillə kimi adlar təbiətin sərt iqliminin tarixi-semantik məzmun daşıyıcısı kimi ortaya çıxmışdır. Qədim təsəvvürlərdə qışın bir çox obrazlarına müxtəlif münasibətlər də ifadə edilir. Eyni zamanda estetik düşüncədə çillə şəxsləndirilir, onun boyu, buxunu, gücü, hikkəsi, ümumilikdə daxili aləmi, xilqəti barədə söz açılır. Böyük Çillə xoşqılıqlıdır, insana o qədər də ziyan vurmur. Kiçik Çillə isə daha sərt təbiətli və amansızdır.

Artıq Böyük Çillə öz ömrünü başa vurmaq üzrədir. Bu, qış fəslinin ən uzun sürən vaxtının, birinci qırx gününün xalq arasındakı adıdır. Böyük Çillənin ilk gecəsi el arasında "şəbi-yelda" adlanır. El-obada Böyük Çillənin qarlı, tufanlı, sümük üşüdən günlərinə "Qara qış" da deyirlər. Bu müddətdə qış üzücü keçir, qar qarışıq küləklər olur. Qışın qışlığı çənindən, dumanından bəllidir. Çünki bu mövsümün çəni, dumanı qar gətirir. Bir xalq söyləməsində deyildiyi kimi, qış dumanı qar gətirər, yaz dumanı bar.

İnsanlar şumlanacaq torpağı Böyük Çillədə qış aratına qoyarlar. Arxları, kanalları təmizləyib qaydaya salarlar. Belə vaxtlarda uşaqlar da köməyə gələr, hamı bir-birinə əl tutar, ağacların dibini yumşaldarlar. "Qışda işini bilən, yazda-yayda ziyan çəkməz" deyiblər.

Ömrünü-gününü torpağa bağlayanlar ağacların, tənəklərin budanmasını Novruza qədər qurtarmalıdırlar. Bundan sonra onlara əl gəzdirmək olmaz. Çünki canlarındakı su göz yaşı kimi axıb tökülər və ağaclar kökündən quruya bilər.

Ulularımız deyib ki, Böyük Çillədə torpaq qırxını çıxardır, Kiçik Çillədə isə torpaq səhər yuxusundadır. Böyük Çillə barədə el-oba arasında gəzən neçə-neçə maraqlı deyimlər də var.

Belə söyləyirlər ki, bir gün Böyük Çillə deyir:

- Mən dolu qazanlar üstünə gəlmişəm, qarıları sağlam görmüşəm. Sonra təndirləri yandırtdım, kürsüləri qurdurdum, küplərin, çuvalların ağızlarını açdırdım.

Böyük Çillə qırx gün dövran sürüb gedir. Yolda Kiçik Çillə ilə rastlaşır. Hal-əhvaldan sonra Kiçik Çillə soruşur:

- A Böyük Çillə, de görüm, qırx gündür gəlib atını çapdın, bu qırx gündə nə gördün, neylədin, işin-gücün nə oldu?

Böyük Çillə nə gördüyündən, nə etdiyindən söhbət açır. Hikkəli Kiçik Çillə istehza ilə gülüb cavab verir:

- Eh, sən heç nə etməmisən ki... Mən gəlmişəm gör indi nələr edəcəyəm, nə tufan qoparacağam. Qazanları ağzı üstə çevirəcəyəm, adamları təndirdən salıb külfədən çıxaracağam, küpləri, xaralları boşaldacağam, üzüqoylu qoyub gedəcəyəm.

Onun coşduğunu görən Böyük Çillə deyir:

- Çox da öyünmə. Sən insanları tanımırsan. Mən qırxgünlük ömrümlə bir iş görə bilmədim. Sənin isə cəmicümlətani iyirmigünlük ömrün var. Bu iyirmi gündə heç yel də olub onların yanından ötə bilməzsən. Çünki qabağın yazdır, ömrün də azdır.

Böyük Çillə girəndə və çıxanda ulularımız məclis qurmuş, şirniyyat, isti xörəklər bişirmiş, əhvallarını xoş saxlamışlar. Adamlar bu üsullarla təbiətə təsir etmək, qışa bağlı olan hami ruhları mülayimləşdirmək istəmişlər. Eyni zamanda qış fəslinin hər bir çilləsində insanlar qışdan qorxmadıqlarını, ona qarşı mübarizəyə hazır olduqlarını bildirmək üçün çeşidli tədbirlərə əl atmış, ayinlər icra etmişlər.

***Hazırladı:***
***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azercell Telekom" MMC-nin kollektivi şirkətin Hüquq, Etika və Komplayens departamentinin hüquqşünası

**NURU ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Namiq Əliyevə anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4971**
**Sifariş 188**

**Qiyməti 40 qəpik**